AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
19 MAY 2018-ci il ŞƏNBƏ № 111 (6144) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak edib





**Mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Qeyd edildi ki, binanın inşasına 2016-cı ilin iyununda başlanıb, bu ilin mayında isə başa çatdırılıb. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Burada ən müasir avadanlıq quraşdırılıb. Yeni binanın ümumi sahəsi 11 min kvadratmetrdir. Partiyanın yeni binası indi paytaxtımızın müasir və memarlıq baxımından göz oxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlətimizin başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.



Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin binanın foyesindəki abidəsinin önünə gül dəstəsi qoydu.

Yeni Azərbaycan Partiyasının yeni binasında Heydər Əliyev muzeyi yaradılıb. Muzeydəki müxtəlif fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi irsinin və zəngin dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Burada ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördüyü işləri əks etdirən fotoguşələr var.

Prezident İlham Əliyev binada yaradılan şəraitlə yaxından tanış oldu.

Məlumat verildi ki, ümumilikdə inzibati bina 50 otaq, müşavirə, konfrans və akt zallarından ibarətdir. Hər mərtəbədə iş otaqları ilə yanaşı, kiçik müşavirə zalları da var. Konfrans zalı 100 yerlikdir. Buradakı 268 yerlik böyük akt zalında respublika əhəmiyyətli və partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Binadakı bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi də diqqətdə saxlanıb. Belə ki, binada Azərbaycanda informasiya-kommunikasiya və proqram təminatı sahəsində 15 ildən artıq fəaliyyət göstərən yerli "CASPEL" şirkəti tərəfindən müasir, beynəlxalq tələblərə cavab verən infrastruktur qurulub, intellektual kamera-mühafizə sistemi təşkil edilib.

**(davamı 2-ci səhifədə)**

## R.H.İbrahimovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Hüseyn oğlu İbrahimov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## Muzey işi sahəsində çalışan bir qrup şəxsə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında muzey işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Axundova Aida Xalıq qızı
Bağırova Qəmər Seyfəddin qızı
Balayeva Təranə Əhməd qızı
Bayramov Rza Rafiq oğlu
Bəkirova Nahidə Ellaz qızı
Əhmədova Tünzalə Həmid qızı
Ələkbərova Səadət Cahangir qızı
Hacıyev Akif Bağır oğlu
İbrahimov Kamil Fərhad oğlu
Orucəliyev Ramil Əli oğlu
Şadlinskaya Xanım Nazim qızı
Tağıyeva Əntiqə Rəhim qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Mayın 18-də Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı dövlət başçıları Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında əməkdaşlığa dair aktual məsələləri müzakirə edib, bundan əvvəl əldə olunmuş razılaşmaların praktiki şəkildə həyata keçirilməsi və ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafının perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

## Bərdə şəhərində Tərtər çayı üzərində yeni körpü tikilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bərdə şəhəri ərazisində Tərtər çayı üzərində qəzalı vəziyyətə düşmüş körpünün sökülməsi və onun yerində yeni körpünün tikilməsi məqsədi ilə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin ilkin olaraq 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## N.M.Aslanovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Natiq Musa oğlu Aslanov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Ölkələrimiz və xalqlarımız arasında mövcud olan dostluq münasibətlərinə əsaslanaraq əminliklə deyə bilərəm ki, Portuqaliya və Azərbaycan ikitərəfli əməkdaşlığın bütün aspektləri, o cümlədən beynəlxalq arenada əlaqələrin genişləndirilməsi istiqamətində birgə işi davam etdirəcəklər.

Cənab Prezident, Sizi bir daha təbrik edir, Zati-alinizə xoşbəxtlik, Azərbaycan xalqına inkişaf və rifah arzulayıram.

*Hörmətlə,*

**Marselo Rebelo de Souza**
**Portuqaliya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizi Kosta Rika Respublikasının xalqı və Hökuməti adından səmimi qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının gələcəyi bizdə inam və nikbinlik yaradır, ölkələrimiz arasında qurulmuş dostluq münasibətlərinin xalqlarımız üçün qarşılıqlı faydalı layihələrə təkan verəcəyinə ümid edirik.

Zati-aliləri cənab Prezident, mənim xarici işlər və etiqad naziri vəzifəsində müddətim başa çatıb. Lakin bu vəzifədə olduğum dövrdə bir neçə dəfə səfər etdiyim Sizin ölkənizə bir daha səmimi minnətdarlığımı bildirmək üçün bu xoş fürsətdən istifadə etmək istəyirəm. Səfərlərim zamanı xalqlarımızın qonaqpərvərliyindəki bənzərliklərin şahidi oldum.

Əminəm ki, ölkələrimiz arasında son illər müşahidə olunan yaxınlaşma bundan sonra da davam edəcək və tezliklə Latın Amerikası ilə Qafqaz regionunu yeni beynəlxalq birgə fəaliyyət formasında yaxınlaşdıracaq əməkdaşlıq layihələrinin şahidi olacağıq.

Bir daha Sizi səmimi qəlbdən təbrik edir, Azərbaycan xalqına Kosta Rika xalqının ən səmimi və qardaş salamlarını çatdırıram.

Fürsətdən istifadə edərək bir daha Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Manuel A.Qonzalez Sanz**
**Kosta Rika Respublikasının sabiq xarici işlər və etiqad naziri**

# Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak edib



(əvvəli 1-ci səhifədə)

Şirkət tərəfindən partiyanın bütün iş proseslərini, üzvlərin qeydiyyatını idarə edən proqram təminatı yazılıb və inzibati binanın bütün otaqları müasir kompüter, pereferiya avadanlığı ilə təchiz olunub. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının bütün rayon təşkilatları vahid kommunikasiya məkanında birləşdirilib.

Qeyd edək ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan, milli maraqların müdafiəsi və təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının yaranmasından artıq 26 il ötür. Partiya bu gün ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Partiya Azərbaycanın müasir və dinamik inkişaf edən ölkə kimi nüfuzunun daim artmasında mühüm rol oynayır, ümummilli lider Heydər Əliyevin ideya və arzularını yüksək səviyyədə həyata keçirir. Son illərdə keçirilən prezident və parlament seçkilərində böyük səs çoxluğu ilə qalib gələn Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi kimi Azərbaycan cəmiyyətində yüksək etimad, hörmət və nüfuz qazanıb. Hazırda Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox üzvü birləşdirir. Onların 38 faizini gənclər, 47 faizini isə qadınlar təşkil edir. Partiyanın Gənclər Birliyi və Qadınlar Şurası da təşkilatın aparıcı qüvvəsi kimi ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.









AZƏRTAC

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Parisdə UNESCO-nun baş direktoru ilə görüşüb



**Mayın 18-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Parisdə UNESCO-nun baş qərargahında təşkilatın baş direktoru Odre Azule ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, UNESCO-nun baş direktoru Odre Azule Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Koişiro Matsuuranın 80 illik yubileyi münasibətilə təşkil edilən tədbirdə iştirakına görə minnətdarlığını bildirdi. Qeyd etdi ki, bu tədbir Koişiro Matsuuranın 80 illiyi ilə yanaşı, ümumiyyətlə, UNESCO-nun missiya, məqsəd və fəaliyyətini təcəssüm etdirir.

Baş direktor Odre Azule bu vəzifəyə seçiləndən sonra Azərbaycanla UNESCO arasındakı münasibətlərin zəngin tarixini daha dərindən öyrəndiyini və ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini diqqətə çatdırdı. O, fəaliyyəti dövründə də ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyini bildirdi.



Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü olan “Bakı Prosesi”ndən söz açaraq, bu il həmin prosesin 10 illiyinin qeyd olunduğunu vurğuladı. Birinci vitse-prezident bildirdi ki, 2019-cu ildə Bakıda növbəti Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək. Son illər ərzində Azərbaycan bu cür mötəbər tədbirlərə ev sahibliyi etməsi, həmçinin təhsil, elm və mədəniyyət sahələrində müxtəlif layihələrdə iştirakı ilə UNESCO-nun təşəbbüsləri və fəaliyyətinə böyük töhfələr verib.

Mehriban Əliyeva Azərbaycan mədəni irs nümunələrinin UNESCO-nun Ümumdünya Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmasına görə təşəkkürünü bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunduğunu diqqətə çatdırdı. Bildirdi ki, ötən 100 il ərzində Azərbaycan bir çox nailiyyətlər əldə edib. Bunlardan ən vacibi qadınlara seçib-seçilmək hüququnun verilməsidir ki, bu da UNESCO-nun məqsəd və məramlarına, mandatına uyğun məsələdir. Bununla əlaqədar bu il ərzində UNESCO ilə birgə tədbirlərin təşkili nəzərdən keçirildi. Baş direktor Odre Azule nəzərdə tutulan tədbirlərin keçirilməsinə dəstək verəcəyini bildirdi. O vurğuladı ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması və əldə edilən nailiyyətlər təqdirəlayiqdir.

Birinci vitse-prezident Mehriban Əliyeva baş direktor Odre Azuleni Azərbaycana səfərə dəvət etdi.

AZƏRTAC

# Parisdə UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuuranın 80 illiyi münasibətilə konfrans keçirilib

*Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva konfransda iştirak edib*



**Mayın 18-də Parisdə UNESCO-nun baş qərargahında 1999-2009-cu illərdə təşkilatın baş direktoru olmuş Koişiro Matsuuranın anadan olmasının 80 illiyi münasibətilə konfrans keçirilib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva iştirak edib.

Azərbaycanın Birinci vitse-prezidenti UNESCO-nun baş qərargahında təşkilatın keçmiş rəhbərləri, fəxri və xoşməramlı səfirləri ilə görüşdü.




Azərbaycan-UNESCO münasibətlərinin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın mühüm xidmətləri var. Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə 2004-cü ilin sentyabrında UNESCO-nun xoşməramlı səfiri adına layiq görülən Mehriban Əliyeva dünya mədəniyyətinə qayğı və diqqətinə, həmçinin Azərbaycanın mədəni irsinin yaşadılması sahəsindəki töhfələrinə görə 2008-ci ildə keçmiş baş direktor Koişiro Matsuura tərəfindən gümüş xatirə medalı, 2010-cu ildə sabiq baş direktor İrina Bokova tərəfindən Qızıl Motsart medalı ilə təltif edilib. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə də UNESCO-nun çox səmərəli əməkdaşlığı mövcuddur. Məhz Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almaqdadır.

UNESCO-nun Keçmiş üzvləri Assosiasiyasının sədri Corc Kutukcen Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı və tədbirin digər iştirakçılarını salamladı. O, həmçinin 1974-1987-ci illərdə UNESCO-nun baş direktoru olmuş Amadu Mahtar Mbou və 1987-1999-cu illərdə həmin vəzifədə çalışmış Federiko Mayorun təbrik məktublarını oxudu.

UNESCO-nun baş direktoru Odre Azule Koişiro Matsuuranın qurumun inkişafındakı xidmətlərinə toxundu, onun idarəçilik təcrübəsinin bu gün də davam etdirildiyini söylədi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva konfransda çıxış etdi.

(davamı 3-cü səhifədə)

# Parisdə UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuuranın 80 illiyi münasibətilə konfrans keçirilib

*Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva konfransda iştirak edib*






## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı




-Xanım Baş Konfransın sədri.

Hörmətli cənab Matsuura.

Hörmətli İrina Bokova.

Zati-aliləri, hörmətli həmkarlar, xanımlar və cənablar.

Əvvəla, dəvətə görə təşəkkürümü bildirmək istəyirəm və burada, UNESCO-da həmkarlarımın və dostlarımın arasında olmağa çox şadam.

İcazə verin, sizi, əziz cənab Matsuura, 80 illik yubileyiniz münasibətilə təbrik edim və sizə möhkəm cansağlığı və uğurlar arzu edim.

UNESCO-nun baş direktoru vəzifəsində gördüyünüz işləri çox yüksək qiymətləndiririk. Sizin fəaliyyətiniz zamanı aparılan islahatlar UNESCO-nun dünya üzrə nüfuzunun gücləndirilməsinə imkan verdi. Biz bir çox uğurlu humanitar layihələrdən söz açdıqda sizin adınız həmişə qeyd olunur, məsələn, "Hamı üçün təhsil" beynəlxalq layihəsi və bir çox digərləri.

Sizin rəhbərliyiniz altında UNESCO və ölkəmiz arasında münasibətlər daha da möhkəmlənib. Dərin minnətdarlıq hissi ilə biz sizin Bakıya səfərlərinizi, birgə forum və konfranslarımızda şəxsən iştirakınızı xatırlayırıq. Mən sizin ilk beynəlxalq "Muğam aləmi" festivalında iştirakınızı xatırlayıram. Sizin iştirakınızla biz Azərbaycan Dövlət Xalça Muzeyinin və Beynəlxalq Muğam Mərkəzinin təməlini qoymuşuq. Sizinlə bir yerdə Müasir İncəsənət Muzeyinin açılışını etmişik. Bu gün bu mədəniyyət mərkəzləri paytaxtımızın ən çox ziyarət olunan və maraq doğuran yerlərinə çevrilib.

2007-ci ildə biz Azərbaycanda peşə hazırlığını inkişaf etdirmək üçün layihənin birgə icrası üzrə sənədə imza atdıq. Sonra 2009-cu ildə qeyri-maddi mədəni irsin qorunmasında strateji məqsədləri təmin etmək üçün Əməkdaşlıq Sazişini imzaladıq.

Sizin rəhbərliyiniz dövründə bizim tarixi abidələrimiz olan Bakının İçərişəhəri, Şirvanşahlar sarayı, Qız qalası, habelə Qobustan qayaüstü təsvirləri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Musiqimizin inciləri olan muğam və aşıq sənəti Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Sizin səyləriniz nəticəsində 2004-cü ildə mənə UNESCO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri titulunu almaq şərəfi nəsib olub və o vaxtdan bəri mənə göstərilən etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməmişəm. Əziz cənab Matsuura, biz Azərbaycanla UNESCO arasında ikitərəfli əlaqələrin gücləndirilməsində sizin şəxsi səylərinizi çox yüksək qiymətləndiririk.

Bizim əməkdaşlığımızın tarixi 1992-ci ilə gedib çıxır. O zaman müstəqillik qazandıqdan dərhal sonra Azərbaycan bu mötəbər təşkilata üzv oldu. O vaxtdan bəri Azərbaycan UNESCO-nun əksər konvensiyaları və digər hüquqi sənədlərinə qoşularaq onları ratifikasiya edib. Bu gün biz təşkilatda fəal təmsil olunaraq və öz töhfəmizi verərək UNESCO proqramlarının işində iştirak edirik. 2013-cü ildə Azərbaycan və UNESCO Elm, Təhsil, Mədəniyyət və Kommunikasiya sahəsində Əməkdaşlığa dair Çərçivə Sazişini imzaladı. Beləliklə, Azərbaycan donor ölkələri ailəsinə üzv oldu və bununla da UNESCO proqram və layihələrinə fəal dəstəyini göstərməyə başladı. Biz bununla qürur duyuruq. Digər məsələlər sırasında mən burada Afrika ölkələrində keyfiyyətli təhsilə nail olmaq üçün təvazökar töhfəmizi qeyd etmək istəyirəm.

Əziz dostlar, qədim İpək Yolunun mərkəzində yerləşən Azərbaycanın fikirlərin paylaşıldığı və insanların dostluq mühitində bir araya gəldiyi məkan kimi uzun tarixi var. Sivilizasiya, mədəniyyət və dinlərin qovuşuğunda yerləşən bir ölkə kimi Azərbaycan mədəniyyətlərarası dialoq, digərlərinə qarşı tolerantlıq və hörmət nöqteyi-nəzərindən beynəlxalq ictimaiyyətə bir çox şeylər təklif edə bilər. Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasətidir və biz multikulturalizm dəyərlərinin təşviqində UNESCO da daxil olmaqla beynəlxalq ictimaiyyətlə əməkdaşlıq edirik.

Burada mən Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə irəli sürülən, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq olunmasında həqiqətən də qlobal platformaya çevrilən "Bakı Prosesi"ni qeyd etmək istəyirəm. Əvvəla, bu, Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr arasında əməkdaşlıq platforması kimi irəli sürülmüşdür. 2008-ci ildə Azərbaycan bu iki beynəlxalq təşkilatın üzvü kimi Bakıda İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşünü keçirdi. Bu proses bu günə kimi davam edir. Bu il biz "Bakı Prosesi"nin 10-cu ildönümünü qeyd edirik. UNESCO ilə sıx tərəfdaşlıq edərək, biz "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq üzrə 4 dünya forumunu müvəffəqiyyətlə keçirdik və bu işi gələcəkdə də davam etdirməyə hazırıq.

İnsan potensialının inkişafı UNESCO-nun və Azərbaycanın böyük əhəmiyyət verdiyi digər sahədir. Keyfiyyətli təhsil və mədəniyyət insan inkişafı üçün əsas elementlərdir və bu əhəmiyyəti nəzərə alaraq Azərbaycan "Ekspo 2025" Ümumdünya Sərgisini Bakıda keçirmək üçün namizədliyini irəli sürərək, "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusunu seçib. Təklifimiz qalib gələrsə, biz bütün dünyanı Bakıya gətirməyə, dialoq və əməkdaşlığın mübadiləsi üçün həqiqətən universal platforma yaratmağa ümid edirik.

Azərbaycan dünya mədəni irsinin qorunmasına və proaktiv humanitar siyasətə birbaşa töhfə verərək UNESCO-nun dəyər və ideallarına çox sıx bağlı olduğunu nümayiş etdirib. İcazə verin, burada bir neçə misal çəkim. Qızlar üçün yeni məktəb inşa etməklə Azərbaycan 2005-ci ildə Pakistanın Müzəffərabad şəhərində dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması üçün beynəlxalq ictimaiyyətin səylərinə töhfə verib. 2011-ci ilə UNESCO ilə bağlanan müqavilə əsasında biz, həmçinin zəlzələdən əziyyət çəkmiş Haitinin mədəni irsinin bərpasında iştirak etmişik. Azərbaycanın dünya mədəni irsinin təqdimatı və bərpasına yönələn xeyriyyəçilik fəaliyyəti Almaniyada Berlin qəsri, Versalda qədim abidələr, Fransada aşağı Normandiyadakı kilsə və Luvr muzeyi, müqəddəs Marçellinio və Pietro qədim əlyazmaları və katakombaları, Vatikanda San Sebastian katakombaları, İtaliyada Kapitoli muzeyində filosoflar zalı, Bolqarıstanda Trapezitsa muzeyi və digər bu kimi bir çox ölkələri əhatə edib.

Əziz dostlar, mən nailiyyətlərimizdən, cənab Matsuuranın UNESCO-ya uğurlu onillik rəhbərlik fəaliyyətindən çox danışa bilərəm. Bilirəm ki, bu səhər digər həmkarlarımın da sizlərlə paylaşacağı çoxlu fikirləri olacaq. Sonda mən, sadəcə, cənab Matsuuranın müstəsna insani keyfiyyətlərini qeyd etmək istəyirəm. Öz təcrübəmdən deyə bilərəm ki, o, elə bir insandır ki, öz şəxsi səviyyəsi ilə kişi və qadınların düşüncələrinə sülh gətirir və buna görə UNESCO-nun dəyərləri və ideallarının təşviqində onun rolu həddindən artıq qiymətlidir. Mən həqiqətən belə bir dahi şəxsiyyətlə tanış olduğuma görə sevinc və qürur hissi duyuram, mükəmməl əməkdaşlığımızın və dostluğumuzun xoş xatirələrini yada salıram. Cənab Matsuura, sizinlə işləmək mənim üçün həmişə xoş idi və bir öyrənmə təcrübəsi idi. Mən gələcəkdə görüşəcəyimizə ümid edirəm, sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram. Sizi tezliklə Azərbaycanda görəcəyimə ümid edirəm. Sağ olun.

* * *

Sonra 2009-2017-ci illərdə UNESCO-nun baş direktoru olmuş İrina Bokova Koişiro Matsuuranın rəhbərliyi dövründə UNESCO-nun qəbul etdiyi mühüm sənədləri xatırlatdı. İrina Bokova mandatlığı dövründə göstərdiyi dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlıq etdi.

UNESCO-nun Baş Konfransının sədri Zohur Alaui Koişiro Matsuuranın mədəniyyətlərarası dialoqun və multikulturalizmin inkişafına verdiyi töhfələrdən danışdı və onun prioritet elan etdiyi istiqamətlərin vacibliyini vurğuladı.

2009-2011-ci illərdə İcra Heyətinin sədri olmuş Eleonora Mitrofanova Koişiro Matsuuraya dünyada xalqlararası sülhü təşviq etdiyinə görə "Sülh, dostluq və əməkdaşlıq" medalını təqdim etdi.

Tədbirdə 2004-2008-ci illərdə UNESCO yanında Amerika




Birləşmiş Ştatlarının səfiri olmuş Luiz Oliverin məktubu da oxundu.

Daha sonra UNESCO-nun fəxri və xoşməramlı səfirləri Marianna Vardinoyannis, Setsuko Klossovska de Rola və Bahia Hariri Koişiro Matsuuranın UNESCO-ya rəhbərliyi dövründə təşkilatın fəaliyyətinin genişlənməsindəki xidmətlərini vurğuladılar.

Sonda çıxış edən Koişiro Matsuura UNESCO-ya rəhbərliyi dövründə fəaliyyəti ilə bağlı xatirələrini bölüşdü. O, Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya onun haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirdi və onun dəstəyi ilə həyata keçirilən çoxsaylı əhəmiyyətli layihələri qeyd etdi. Ulu öndər Heydər Əliyevin dəvəti ilə 2000-ci ildə Bakıda türkdilli dövlətlərin Sammitində iştirakını xatırladan Koişiro Matsuura bildirdi ki, həmin səfəri çərçivəsində Mehriban Əliyeva ilə görüşüb. Həmin görüşdə Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin UNESCO-nun ümumdünya İrs




Siyahısına təqdim edilməsi müzakirə olunub. Koişiro Matsuura vurğuladı ki, bu gün Mehriban Əliyevanın təşəbbüsü ilə UNESCO-nun Mədəni və Qeyri-Maddi Mədəni İrs Siyahısına Azərbaycan mədəniyyətinin bir çox inciləri daxil edilib. O, ölkəmizin Birinci vitse-prezidentinə UNESCO-nun xoşməramlı səfiri kimi mədəni irsin qorunması sahəsinə göstərdiyi diqqətə görə təşəkkür etdi. "Azərbaycanla bağlı zəngin xatirələrim var", - deyən Koişiro Matsuura bu ilin oktyabrında ölkəmizdə keçiriləcək Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə də Azərbaycan hökumətinə təşəkkürünü ifadə etdi.

**AZƏRTAC**

# Konstitusiya Məhkəməsinin sədri Sankt-Peterburqda beynəlxalq konfransda iştirak edib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Rusiya Federasiyası Konstitusiyasının qəbul edilməsinin 25 illiyinə həsr olunmuş "Qlobal dəyişikliklər dövründə Konstitusiya və konstitusiya nəzarətinin vəzifələri" mövzusunda VIII Peterburq Beynəlxalq Hüquq Forumu çərçivəsində keçirilən beynəlxalq konfransda iştirak etmək üçün mayın 14-dən 17-dək Sankt-Peterburqda səfərdə olub.**



Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Konstitusiya məhkəmələrinin sədr və hakimlərinin, habelə Rusiya Federasiyası dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş konfransın açılışında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Konstitusiyanın 25 illiyi ilə bağlı Konstitusiya Məhkəməsinə ünvanladığı təbrik məktubu oxunub.

Konfransda Konstitusiya məhkəmələrinin konstitusiya hüququnun inkişafındakı rolu, milli qanunvericiliyin konstitusiya normalarına uyğunluğunun vacibliyi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının məhkəmələrin qəbul etdikləri qərarlarda əks olunmuş hüquqi mövqelərin əsaslandırılmasında rolu və digər hüquqi məsələlər ətrafında məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

VIII Peterburq Beynəlxalq Hüquq Forumunda Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedev açılış nitqi ilə çıxış edib.

Forum çərçivəsində hüquq peşəsinin gələcəyi, hüquqşünaslıqda innovasiyalar, müasir dünyada intellektual hüquq, beynəlxalq ədalət mühakiməsi, hüquqi fəaliyyətdə innovasiyaların tətbiqinə dair mövzular ətrafında məruzələr edilib və müzakirələr aparılıb.

Səfər zamanı Sankt-Peterburqda ulu öndər Heydər Əliyevin 1949-1950-ci illərdə təhsil aldığı SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin ali məktəbinin yerləşdiyi binanın üzərinə Ümummilli Liderin şərəfinə vurulmuş xatirə lövhəsinin önünə gül-çiçək dəstələri qoyulub.

Tədbirlərdə, həmçinin Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov iştirak edib.

**AZƏRTAC**

*Müdafiə naziri:*

# Azərbaycanın iqtisadi yüksəlişi və hərbi potensialının artması Ermənistanı iflasa uğradıb





**Mayın 18-də birlik, birləşmə, hərbi hissə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinlərinin iştirakı ilə "Müasir döyüşün mənəvi-psixoloji təminatının aktual problemləri" mövzusunda seminar keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov seminarda iştirak edən şəxsi heyətlə görüşüb.

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Döyüş və mənəvi-psixoloji hazırlıq işinin cari vəziyyəti ilə bağlı geniş təhlil aparan general-polkovnik Z.Həsənov bu istiqamətdə fəaliyyətin yüksək səviyyədə təşkili, hərbi qulluqçuların milli mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, müasir silah və texnikanı dərindən bilmələri və bir sıra digər məsələlərlə bağlı fikirlərini bölüşüb.

Ordumuzun qazandığı nailiyyətləri xüsusi qeyd edən müdafiə naziri bu uğurların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu prosesinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu vurğulayıb.

Müdafiə naziri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü daxili və xarici siyasəti Ermənistanı bütün regional və beynəlxalq iqtisadi layihələrdən təcrid edərək xarici yardımlardan asılı vəziyyətə salıb. Nazir xüsusilə qeyd edib ki, Azərbaycanın iqtisadi yüksəlişi və hərbi potensialının artması Ermənistanı iflasa uğradıb.

Z.Həsənov döyüş və mənəvi-psixoloji hazırlıq işinin daim gücləndirilməsi, təhlükəsizlik qaydalarına əməl olunması və sayıqlığın artırılması, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin düzgün aparılması, qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun təşkil edilməsi və digər sahələrlə bağlı səylərin artırılması istiqamətində konkret tapşırıqlarını verib.

Sonra seminarın mövzusu ilə əlaqədar məruzələr dinlənilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb və mənəvi-psixoloji təminatın təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürülüb.

**AZƏRTAC**

# San-Fransiskoda Azərbaycan tolerantlığına həsr olunmuş geniş tədbir keçirilib

*Erməni lobbisi tədbirin qarşısını almağa çalışsa da, növbəti dəfə iflasa uğrayıb*

**San-Fransisko şəhərində ABŞ-ın ən qədim qurumlarından olan "Commonealth Club" təşkilatında Azərbaycanın multikulturalizm, dinlərarası harmoniya və dini tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir keçirilib.**

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, tədbir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının başçılığı ilə ölkəmizdəki müxtəlif dini icmaların rəhbərlərindən ibarət nümayəndə heyətinin ABŞ-ın Kaliforniya ştatına səfəri çərçivəsində baş tutub.

Tədbir Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun, San-Fransiskoda və ətraf rayonlarda fəaliyyət göstərən dini komitələrin, şuraların, icmaların təşkilatçılığı ilə keçirilib.

Tanınmış din xadimlərinin, bir çox icmaların nümayəndələrinin, ictimai-siyasi xadimlərin və jurnalistlərin iştirak etdikləri tədbirdə Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən, DQİDK tərəfindən hazırlanmış videofilm nümayiş etdirilib. Tədbir iştirakçıları, həmçinin Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələri ilə bağlı fotosərgi ilə tanış olublar.

Əvvəlcə tədbirin təşkilatçıları salamlama nitqi ilə çıxış edib, Azərbaycanın multikultural dəyərlərindən, tolerantlıq ənənələrindən danışıblar.

Sonra Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğunu qeyd edib. M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Azərbaycanda müxtəlif dinlərə məxsus çoxlu sayda ibadət evlərinin sərbəst fəaliyyət göstərdiyini qeyd edən M.Qurbanlı ölkəmizdə yaşayan dini icmalara dövlət qayğısından danışıb. Komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin multikulturalizmi və tolerantlığı Azərbaycanda dövlət siyasəti səviyyəsinə yüksəltdiyini diqqətə çatdırıb.

Baş konsul Nəsimi Ağayev tədbirdə iştirak edən və onun təşkilinə kömək göstərən təşkilatlarla sıx dostluq münasibətlərinin qurulduğunu vurğulayıb və bunun Azərbaycanın dinlərarası tolerantlıq modelinin ABŞ-da təbliği işinə yüksək töhfə verdiyini bildirib. Diplomat tədbirin keçirildiyi məkanın da əlamətdar yer olduğunu, ABŞ Prezidenti Vudro Vilsonun 1919-cu ildə məhz "Commonealth Club" təşkilatında etdiyi çıxış zamanı Azərbaycan barədə müsbət fikirlərini bölüşdüyünü qeyd edib.

Sonra çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvləri Fuad Nurullayev, Milix Yevdayev, Aleksandr Şarovski, Robert Mobili və Elnur Əfəndiyev ölkəmizin tarixi tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq, uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin Odlar Yurdunda sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını diqqətə çatdırıblar.

Daha sonra nümayəndə heyətinin üzvləri tədbir iştirakçılarının və media nümayəndələrinin suallarını cavablandırıblar.

Qeyd edək ki, radikal daşnak erməni lobbi təşkilatı olan Amerika Erməniləri Milli Komitəsinin (ANCA) San-Fransisko bölməsi tədbirin keçirilməsinin qarşısını almaq üçün müxtəlif vasitələrlə səylər göstərsə də, buna nail ola bilməyib. Bu zaman ANCA tədbirə nümayəndələrini göndərərək Azərbaycan haqqında yalan məlumatların əks olunduğu vərəqələr yaymağa cəhdlər göstərib. Bunun da qarşısı alındıqdan sonra erməni lobbisinin təmsilçiləri tədbirin gedişinə mane olmağa çalışaraq Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən təxribat xarakterli suallar veriblər. Cavab olaraq, DQİDK-nın sədri M.Qurbanlı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edildiyini və 1 milyondan çox soydaşımızın öz yurdundan didərgin salındığını, bu münaqişənin dinlərarası münaqişə olmadığını qeyd edərək, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin nə üçün indiyədək Ermənistan tərəfindən icra olunmadığını soruşub. Öz təxribat niyyətlərini həyata keçirə bilməyən və digər iştirakçıların da etirazı ilə üzləşən erməni lobbiçiləri rüsvayçılıqla tədbiri tərk ediblər.

**AZƏRTAC**

# Bakı Dövlət Universitetində tanınmış kimyaçı alimin 80 illik yubileyi qeyd olunub






**Mayın 18-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, kimya elmləri doktoru, Əməkdar Elm Xadimi, professor Musa Bayramovun anadan olmasının 80 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov professor M.Bayramovun mənalı ömür yolundan, səmərəli elmi və pedaqoji fəaliyyətindən danışıb.

Qeyd olunub ki, M.Bayramov 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsini bitirib, bir müddət akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda çalışıb. O, 1969-cu ildən fəaliyyətini BDU-da uğurla davam etdirir.

Hazırda universitetin kafedra müdiri vəzifəsində çalışan alim 1968-ci ildə namizədlik, 1984-cü ildə doktorluq dissertasiyaları müdafiə edib, ona professor elmi adı verilib. Yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasında mühüm xidmətləri olan M.Bayramov 500-dən çox elmi əsərin, o cümlədən dəyərli monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin, 40-dək müəlliflik şəhadətnaməsi, 20-dən çox patentin müəllifidir.

Tədbirdə kimya fakültəsinin dekanı, professor Abdulsəyid Əzizovun "Fədakar alim, professor Musa Bayramovun həyat və yaradıcılığı" mövzusunda məruzəsi dinlənilib.

Bildirilib ki, professor M.Bayramovun əsas elmi yaradıcılığı polifunksional monomerlər olan alkenilfenolların sintezi və onlar əsasında reaksiyaya qabil oliqomer və polimerlərin, kompozisiya materiallarının alınması ilə bağlıdır.

Akademiklər Dilqəm Tağıyev, Vaqif Abbasov, Vaqif Fərzəliyev, BDU-nun kafedra müdiri, professor Əyyub Əzizov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin prorektoru, professor Qasım Məmmədov və digər çıxış edənlər də professor Musa Bayramovun elmə və təhsilə verdiyi töhfələrdən söz açıb, ona yeni nailiyyətlər arzulayıblar.

**AZƏRTAC**

# Sumqayıt: GEM-in I rüb ərzində gördüyü işlər uğurludur

**"Sanitar Epidemioloji Salamatlıq haqqında" və "Əhalinin sağlamlığının qorunması haqqında" Respublika qanunlarına, Səhiyyə Nazirliyinin əmr və təlimatlarına, şəhər icra hakimiyyətinin müvafiq sərəncamlarına və göstərişlərinə uyğun Sumqayıt şəhər Gigiyena və Epidemiologiya Mərkəzi əvvəlki illərdə olduğu kimi, bu ilin I rübü ərzində də şəhər əhalisinin sağlamlığının qorunması və bu sağlamlığa təsir edən ətraf mühit amillərinin mənfi nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyət göstərmiş, lazımi tədbirlər görmüşdür.**

Son illər ərzində icra hakimiyyəti başçısının rəhbərliyi altında ayrı-ayrı idarə, müəssisə və təşkilatlar tərəfindən şəhər ərazisində aparılan abadlıq, təmizlik, asfaltlanma, tikinti və quruculuq işləri, kommunikasiya xətlərinin yenidən qurulması və bərpa edilməsi tədbirləri, Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən kompleks şəkildə görülən təşkilati, müalicə-profilaktik və əksepidemik tədbirlər nəticəsində yoluxucu xəstəliklərə qarşı mübarizədə xeyli nailiyyətlər əldə edilmişdir. Əhalinin sağlamlığının qorunması istiqamətində aparılan Dövlət Sanitariya nəzarətinin gücləndirilməsi, qabaqcadan lazımi profilaktik və əksepidemik tədbirlərin görülməsi, şəhər əhalisinə verilən içməli suyun keyfiyyətinə nəzarətin gücləndirilməsi, yaz-yay və payız-qış mövsümünə hazırlıq dövründə müvafiq təkliflərin irəli sürülməsi görülən vacib tədbirlərdir.

Hər il olduğu kimi, bu ilin birinci rübü ərzində də Səhiyyə Nazirliyinin profilaktik peyvənd proqramına uyğun İdarə olunan yoluxucu xəstəliklər üzrə peyvənd planı hazırlanmış, peyvəndləşmə planları tərtib edilmiş, yerinə yetirilməsi məqsədilə MPM-ə təqdim edilmişdir. İlin əvvəlindən yoluxucu xəstəliklərin vaxtında aşkar olunması, diaqnostikası və profilaktikası məqsədilə hazırlanan kompleks tədbirlər planı şəhər icra hakimiyyəti yanında Fövqəladə Hallar Kommissiyasında təsdiq edilmiş və icrası tərəfimizdən ciddi nəzarətə götürülmüşdür. Şəhər Səhiyyə şöbəsinin, ayrı-ayrı idarə və müəssisələrin yaxından köməkliyi ilə görülən kompleks profilaktik tədbirlər nəticəsində şəhər əhalisi arasında bir çox xəstəilklərə (qarın yatalağı, difteriya, qara yara, göy öskürək, tülyeramiya və s.) rast gəlinməsə də, bəzi xəstəliklərin (malyariya, məxmərək, parotit, qızılca, poliomielit və s.) baş verməsi və yayılmasının qarşısı alınsa da, hələ də bir çox obyektiv və subyektiv səbəblərdən müəyyən xəstəliklərin (quduzluq, bruselyoz, salmanelyoz və s.) baş verməsi və yayılması ehtimalı qalır.

Malyariya xəstəliyinin törədicisi olan anofeles ağcaqanadlarının artıb-çoxalmasının qarşısının alınması məqsədilə şəhər ərazisində ictimai və yaşayış binalarının zirzəmilərinə yığılmış suların qurudulması, lazımi təmir işlərinin aparılması üçün əlaqədar idarə və müəssisə rəhbərlərinə (MKTİİB) məktublarla müraciətlər edilmişdir. Malyariyaya qarşı mübarizə məqsədilə II-III rüblər ərzində yaşayış binalarının zirzəmilərində dezinseksiya tədbirlərinin görülməsi, müəyyən ərazilərdə (Novxanı bağları ərazisi, fabrikin arxası və s) işlənmiş yağ və salyarka ilə delarvasiya, didifosla dezinseksiya işlərinin aparılması nəzərədə tutulmuşdur.

Həm yaz-yay mövsümünün başlanması ilə əlaqədar və həm də şəhər rəhbərliyi tərəfindən verilən tapşırıqların vaxtında yerinə yetirilməsi üçün şəhər ərazisindən müxtəlif məişət tullantılarının vaxtlı-vaxtında daşınması, süpürülmə, təmizləmə və abadlıq işlərinin normal yerinə yetirilməsinə Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən nəzarət artırılmışdır. Müxtəlif məhəllə və mikrorayonlarda, xiyabanlarda, yol qıraqlarında zibil tullantılarının yandırılmaması üçün əlaqədar idarə və müəssisə rəhbərlərinə məktublarla müraciətlər edilmişdir. Bəzi məhəllə və mikrorayon ərazilərində zibil tullantılarının yığılması üçün olan konteynerlərin azlığı nəzərə alınaraq həmin məhəllələrdə dezinfeksiya, dezinseksiya tədbirlərinin vaxtında aparılmasına nəzarət gücləndirilmişdir.

Uzun illərdən bəridir ki, məişət və sənaye tullantı sularının böyük bir qisminin təmizlənmədən bir çox yerdən (əsasən 8 sahədən) birbaşa dənizə axıdılması bakterioloji və kimyəvi çirklənmənin normadan yuxarı olmasına səbəb olur. Qeyd edim ki, dəniz suyunun kimyəvi və bakterioloji müayinələrinin nəticələrinə istinad edilərək 1991-ci il də çıxarılmış 9 saylı qərar hər il qüvvədə saxlanılır. Buna görə də hər il çimərlik müvsümü qabağı şəhər icra hakimiyyətinə, Polis idarəsinə, MKTİB-ə məktublar yazılır, vəziyyət barədə məlumat verilir, çimərlik ərazilərinə "çimmək qadağandır" nişanlarının qoyulması təklif edilir, KİV-lərdən istifadə edilərək əhaliyə məlumat çatdırılır.

Ötən ilin I rübü ərzində 13, bu ilin müvafiq dövründə isə 8 xəbərdaredici sanitariya nəzarəti aparılmışdır. Nəzarət aparılan obyektlər üzrə ötən ilin I rübü ərzində 302 dəfə cari sanitariya nəzarəti həyata küçirilmiş və müayinələr aparılmışdır ki, bunların da hamısı dövlət müəssisələri üzrə olmuşdur. Bu ilin müvafiq dövründə isə dövlət müəssisələri üzrə ümumilikdə 291 cari sanitariya nəzarəti aparılmışdır. Sanitariya nəzarəti aparılan dövlət obyektlərində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin əmrinə istinad edilərək işləyənlərin vaxtlı-vaxtında dövri-tibbi müayinələrdən keçmələrinə ciddi nəzarət edilmişdir. Belə ki, GEM tərəfindən 2017-ci ilin I rübü ərzində 758 nəfər obliqat qrup işçi dövri tibbi müayinələrə cəlb olunmuşdur ki, bunların da 477 nəfəri imtiyazsız (pullu), 281 nəfəri isə imtiyazlı (pulsuz) olaraq müayinələrdən keçmişlər.

Səhiyyə Nazirliyinin 59 saylı əmrinə uyğun şəhər ərazisində fəaliyyət göstərən istehsal müəssisələrində istehsal olunan ərzaq və qeyri-ərzaq məhsulları Gigiyenik Sertifikasiyaya cəlb olunmuşlar. Belə ki, 2017-ci ilin I rübü ərzində cəmi 62 adda olmaqla, 60 adda ərzaq və 2 adda qeyri-ərzaq məhsullarına Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Sertifikasiya Mərkəzinin Gigiyenik Sertifikatı verilmişdir. Cari ilin müvafiq dövründə isə cəmi 54 adda ərzaq məhsullarına gigiyenik sertifikatlar alınmışdır.

Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən aparılan Dövlət Sanitariya Nəzarəti zamanı aşkar olunan sanitar-gigiyenik pozuntu hallarına görə cari ilin I rübü ərzində heç bir maddi məsul şəxs barəsində cərimə qərarı tətbiq edilməyib. 2017-ci ilin I rübü ərzində isə 1 nəfər maddi məsul şəxs barəsində "İnzibati xətalar məcəlləsi"nin müvafiq bəndinə uyğun olaraq inzibati tədbir görülmüş, cərimə qərarı yazılmışdır. Bu il heç bir obyektin fəaliyyəti müvəqqəti olaraq (pozuntu halları aradan qaldırılana kimi) dayandırılmamışdır.

Yaz-yay mövsümü ərzində infeksion xəstəliklərin baş verməməsi və yayılmaması üçün cari ilin əvvəlindən etibarən əlaqədar idarə və müəssisə rəhbərləri ilə birlikdə sanitar sağlamlaşdırıcı tədbirlər planı, lazımi kompleks profilaktik tədbirlər planı hazırlanıb icrası nəzarətə götürülmüşdür.

Qida zəhərlənmələrinin, mədə-bağırsaq xəstəliklərinin, digər yoluxucu xəstəliklərin, habelə peşə zəhərlənmələrinin qarşısının alınması istiqamətində dövlət sanitariya nəzarəti aparılan bütün obyektlərdə sanitar maarifi işləri aparılmış, bir çox işçilərlə fərdi söhbətlər keçirilmişdir, hazırda mütəxəssislərimiz tərəfindən bu istiqamətdə tədbirlər davam etdirilir.

MKTİB tərəfindən şəhər ərazisində yaz-yay mövsümünə hazırlıqla əlaqədar böyük tədbirlər həyata keçirilir. Hazırda səki və piyada yollarına, meydança və xiyabanlara üzlük plitələrin döşənməsi, abadlıq işlərinin aparılması, parkların ərazilərində kompleks yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri davam etdirilir. Şəhərin ayrı-ayrı mikrorayon və məhəllələində yaşayış binalarının fasad və dam örtüklərinin müasir tələblərə uyğun şəkildə yenidən qurulması işləri davam etdirilir. Ətraf ərazidə abadlıq işləri görülür, şəhər avtovağzalının qarşısı və ətrafında abadlıq, yenidənqurma və yaşıllaşdırma işləri davam etdirilir. Məhəllə və mikrorayon ərazilərinin abadlaşdırılması, bir çox küçələrin əsaslı olaraq yenidən qurulması və təmir edilməsi, bir çox məhəllə və mikrorayon ərazilərində nümunəvi məhəllə yaradılması işləri görülür. 9-cu mikrorayon ərazisində yerləşən "Lüdviqshafen" parkında abadlıq işləri başa çatmaq üzrədir. Bir neçə mikrorayonda və məhəllələrdə onlarca yaşayış binasının dam örtüyü şiferlə, ruberoidlə cari təmir edilmiş, binaların giriş dəhlizləri, pilləkan meydançaları, xarici kürsü divarları rənglənmişdir. Hazırda bəzi mikrorayonlarda yaşayış binalarının dam örtüklərində əsaslı təmir aparılması tədbirləri davam etdirilir. Məişət tullantılarının daşınması üçün istifadə edilən 151 ədəd konteyner təmir edilmiş və 60 ədəd yeni konteyner alınmışdır. Ayrı-ayrı məhəllə və mikrorayonlar üzrə 46 yaşayış binasının zirzəmisi çirkab və qrunt sularından təmizlənmişdir. 128 ədəd yaşayış binasının zirzəmiləri məişət tullantılarından təmizlənmiş və 1213 yaşayış binasının zirzəmisi pilləkan qəfəsləri də daxil olmaqla dezinfeksiya, dezinseksiya edilmişdir. Qeyd edim ki, ictimai və yaşayış binalarında dezinfeksiya, dezinseksiya tədbirləri hər ay olmaqla bütün il boyu aparılır.

Şəhərin əksəriyyət küçə və prospektlərində dekorativ işıq dirəkləri, düzləndiricilər, elektirik lampaları quraşdırılmış, elektrik kabelləri çəkilmişdir. Şəhərin küçə, park və xiyabanlarında, məhəllə və mikrorayonların ərazilərində yeni qazon sahələri salınmış, 33750 ədəd dekorativ güllər və dekorativ kollar və 9103 ədəd ağaclar əkilmişdir. Mövcud olan yaşıllıqlara və ağaclara mütəmadi olaraq aqrotexniki qulluq göstərilmiş və görülən bu işlər hazırda davam etdirilir.

Əhaliyə verilən içməli suyun laborator müayinəsi əvvəlki illərdə olduğu kimi bu il də GEM tərəfindən təsdiq edilmiş qrafik əsasında gündəlik olaraq aparılır.

**Rafiq ABDULLAYEV,**
**Sumqayıt şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru.**

# "Bank Silk Way" World Mastercard Black Edition Miles kobrend premium kartını təqdim edir



"Bank Silk Way" "AZAL" aviaşirkəti və Mastercard beynəlxalq ödəniş sistemi ilə birgə Mastercard Black Edition Miles kobrend premium kartını istifadəyə buraxır. Bu bankın hesab etibarilə 7-ci Miles kartıdır. Sözügedən ko-brend layihəsi çərçivəsində müvafiq razılaşma "Bank Silk Way" müşahidə şurasının sədri Elçin Əhmədov, Azərbaycan Hava Yolları QSC-nin vitse-prezidenti Eldar Hacıyev və Mastercard-ın Azərbaycan üzrə nümayəndəsi Emil Zeynalov arasında imzalanmışdır.

Mastercard Black Edition Miles kartı parlaq dizayn, yüksək mil hesablanması, yenilikçi həllər, dünyanın istənilən şəhərində mövcud xüsusi imtiyazları ilə səciyyələnir. Yüksək səviyyədə rahatlığı və səyahəti sevən insanlara ideal şəkildə uyğun olan kartlar 2 - 3 il müddətinə və müştərinin seçimindən asılı olaraq manat, ABŞ dolları və ya avro ilə verilə bilər.

**Mastercard Black Edition Miles kartının bir sıra üstünlükləri var.** Belə ki, kart əldə olunarkən 400 hədiyyə balı, ölkə xaricində xərclənən hər 3 AZN, ölkə daxilində isə xərclənən hər 6 AZN üçün 1 bal və PriorityPass kartı hədiyyə verilir. Eyni zamanda dünyanın 1100-dən çox hava limanı zalına giriş imkanı, dünyanın istənilən ölkəsində 24/7 rejimində MasterCard Concierge xidməti, müştərilər və onların ailə üzvləri üçün 374.500 avro sığorta polisi ilə xaricə gedənlərin pulsuz sığorta proqramı, dünyanın istənilən yerində Mastercard qlobal dəstək xidməti, mastercard Global Airport Concierge - dünyanın 700-dən çox hava limanında, mastercard Premium Klublar - Hertz və Avisdən avtomobil icarəsi üçün xüsusi şərtlər və endirimlər, mastercard-dan əvəzsiz güzəştlər - *www.mastercard.az* saytında tərəfdaşlar şəbəkəsində kartla ödəniş zamanı avtomatik endirimlər, hədiyyə olaraq "SW Club" və "Duty Free" endirim kartı, Salam Lounge zalına birdəfəlik səfər üçün hədiyyə kuponu, "Salam Lounge" və "Baku Club" biznes zallarına xüsusi şərtlərlə giriş, internet bankinq və mobil bank xidmətinə pulsuz qoşulma; ATM-lərdə 10 000 AZN / USD / EUR-ya qədər nağd pul çıxarmaq üçün limit və s. kartın üstünlüklərinə daxildir.

Qeyd edək ki, "SW Bank Miles" kartı bank kartının üstünlüklərini və "Azal Miles" proqramının iştirakçısının imtiyazlarını özündə birləşdirən müştərək ödəmə kartıdır. Gündəlik alış-veriş və xidmətlərin haqqını "Miles" kartı vasitəsilə ödəniş edərək, kartın sahibi öz hesabına ballar toplayır. Ballar dünyanın istənilən valyutasında ödənişlər zamanı (manat ekvivalentində) hesablanır. Ballar həmçinin "Azerbaijan Airlines" aviaşirkətinin reyslərindən istifadə edərkən toplanılır. Alınan milləri kart sahibi AZAL aviaşirkətinin reysləri zamanı pulsuz uçuş biletinə,




təyyarə göyərtəsində xidmət sinfinin artırılmasına istifadə edə bilər.

Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün *www.banksilkway.az* saytına, (012) 931 Sorğu Mərkəzinə və ya Bankın rəsmi "Facebook" səhifəsinə *www.fb.com/swbankmiles* müraciət etmək olar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# "II UNEC Science Slam" müsabiqəsinin final mərhələsi keçirilib






**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təşkil edilən müsabiqənin final mərhələsində Təhsil Nazirliyi, AMEA, Elmin İnkişaf Fondu, Gənclər Fondu, Bilik Fondunun rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, görkəmli elm xadimləri, tanınmış təhsil ekspertləri, ictimaiyyət nümayəndələri, eləcə də universitetin professor-müəllim və tələbə heyəti iştirak edib.**

Almaniya, Böyük Britaniya, Rusiya, Ukrayna və Türkiyə kimi ölkələrdən sonra 2017-ci ildən Azərbaycanın adını ən populyar elmi platforma olan "Science Slam" tarixinə yazan UNEC bu il müsabiqədə yeniliklər tətbiq edib. Belə ki, "II UNEC Science Slam" müsabiqəsinə bu ildən digər fakültələrlə yanaşı, Distant, qiyabi və əlavə təhsil mərkəzinin tələbələri də qatılıb.

Müsabiqənin formatına uyğun olaraq, fakültələrin qalibləri 10 dəqiqə ərzində öz araşdırmalarını kreativ şəkildə təqdim ediblər. Tələbələrin sosial mediada uğurlu marketinq siyasəti, süni intellekt, xərclər, məhsulun sertifikatlaşdırılması, ünsiyyət vasitələri, əngəllilərin cəmiyyətə geri qaytarılması, reklam materiallarının insan şüuruna təsiri, pozitiv psixologiya, statik elektriklə idarə olunan nəqliyyat, davranış iqtisadiyyatı barədə tədqiqatları maraqla qarşılanıb.

Təqdimatlardan sonra qaliblərin çıxışları "Science Slam" qaydalarına uyğun olaraq, alqış sədaları ilə qiymətləndirilib. Qalibi xüsusi cihaz vasitəsilə ölçülən alqışın səs diapozunu müəyyənləşdirib. 90.2 desibel (dB) səs tezliyində alqış qazanan Biznes və menecment fakültəsinin I kurs tələbəsi Amal Veysəlov "Hər şey göründüyü kimi deyil" mövzusu ilə "II UNEC Science Slam" müsabiqəsində I yerin sahibi olub. A.Veysəlov təqdimatında televiziyalarda yayımlanan reklam materiallarının insan şüuruna təsirini tədqiq edib.

İqtisadiyyat fakültəsinin II kurs tələbəsi Ramiz Şükürovun "Əngəlliləri cəmiyyətə geri qaytaraq" təqdimatı 89.8 dB ilə II, Türk Dünyası İşlətmə fakültəsinin I kurs tələbəsi Vüsal İsmayılovun "Statik elektriklə idarə olunan avtobus" təqdimatı isə 87.6 dB ilə III yerə layiq görülüb.

Qaliblərə sertifikatlar təqdim edilib. Eyni zamanda, onlar Yekun Dövlət Attestasiya imtahanından azad ediliblər.

Qeyd edək ki, UNEC Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə keçirilən müsabiqənin məqsədi gənclərin elmi tədqiqatlara marağının artırılması, onların dünya elminə çevik inteqrasiyasını təmin etməkdir.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# "AzerTelecom" informasiya texnologiyaları sahəsində maarifləndirmə layihələrini dəstəkləyir

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC-nin baş sponsorluğu və STEP Kompüter Akademiyasının təşkilatçılığı ilə keçirilmiş "Golden Byte" beynəlxalq informasiya texnologiyaları müsabiqəsi başa çatıb.**




"Golden Byte" beynəlxalq İT müsabiqəsinin ölkəmizdə keçirilməsinə fevral ayından start verilib və bu günə qədər iki regional yarımfinal mərhələsi və həmçinin ölkəmizi Ukraynada, Kiyev şəhərində keçiriləcək beynəlxalq final mərhələsində təmsil edəcək qaliblərin müəyyən olunması məqsədilə yekun regional final mərhələsi baş tutub.

Ümumilikdə regional finalın iştirakçıları 7 nominasiya üzrə öz layihələrini təqdim ediblər və bu layihələr "AzerTelecom" şirkətinin Kommersiya məsələləri üzrə direktoru Samir Nuriyevin də tərkibində təmsil olunduğu peşəkar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Hər nominasiya üzrə qaliblərə və eləcə də iştirakçılara təşkilatçılar tərəfindən müvafiq sertifikatlar, müsabiqəyə dəstək verən tərəfdaşlar tərəfindən isə hədiyyələr təqdim olunub.

Tədbirdə çıxış edən "AzerTelecom" MMC-nin Satış və Partnyorların İdarə olunması üzrə direktoru Ləman Abasbəyli bildirib ki, STEP Kompüter Akademiyası tərəfindən təşkil olunan bu beynəlxalq müsabiqə innovativ ideyaların reallaşdırılması, ümumilikdə İKT sahəsində təhsilin irəli aparılması, gənclərimizin ölkəmizi xaricdə keçirilən nüfuzlu beynəlxalq müsabiqədə təmsil etmələri istiqamətində mühüm bir layihədir və "AzerTelecom" şirkəti bu müsabiqənin Azərbaycanda təşkilinə dəstək verməkdə, layihənin uğurlu şəkildə reallaşmasında maraqlıdır.

"Bu müsabiqəyə baş sponsor qismində şirkətimiz tərəfindən dəstəyin verilməsi STEP Kompüter Akademiyası ilə əməkdaşlığımız istiqamətində ilk layihəmizdir və "AzerTelecom" şirkəti olaraq bu təhsil müəssisəsi ilə birlikdə elmin, təhsilin inkişafına töhfə verə biləcək müxtəlif maarifçi xarakterli layihələrdə gələcəkdə də səmərəli şəkildə əməkdaşlıq etmək niyyətindəyik" - deyə Ləman Abasbəyli bildirib.

Qeyd edək ki, nominasiyalar üzrə layihələrin qiymətləndirilməsi və yekun mükafatlandırma mərasimində Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakcell AppLab İnkubasiya Mərkəzi və ölkənin İKT sektorunda fəaliyyət göstərən və müsabiqəyə dəstəkçi olan digər şirkətlərin və bir sıra media qurumlarının nümayəndələri iştirak ediblər.

"AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), lokal VoİP, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Özəlləşdirilən əmlaklar istehsal müəssisələrinə çevrilir

Əmlak Məsələləri Dövlət Komitəsinin mayın 15-də keçirilən özəlləşdirmə hərracında 3 kiçik dövlət müəssisəsi, 3 qeyri-yaşayış sahəsi və 4 avtomobil özəlləşdirilib.

Hərracda ehtiyat hissələrinin satışını həyata keçirmək üçün mağaza özəlləşdirilib. Bərdə şəhərində yerləşən həmin obyektin ümumi faydalı sahəsi 55 kv.m-ə yaxın, torpaq sahəsi isə 70 kv.m-dən çoxdur.

Özəlləşmədə alıcısını tapan sərfəli əmlaklardan biri də 5 saylı avtomobillərə qazdoldurma stansiyasıdır. İnvestorlar Lənkəran şəhərində yerləşən həmin obyekti xidmət sahəsinə cəlb edə bilərlər. Adıçəkilən əmlakın ümumi faydalı sahəsi 80 kv.m-dən çox, torpaq sahəsi isə 8 min kv.m-ə yaxındır.

Kulinariya sahəsində fəaliyyət göstərən obyektlərin sırasına biri də daxil ola bilər. Söhbət "Azərbaycan xörəkləri" kafesindən gedir. Paytaxtın Binəqədi rayonunda yerləşən həmin əmlakın ümumi faydalı sahəsi 220 kv.m-dən çox, torpaq sahəsi isə 450 kv.m-ə yaxındır.

Budəfəki hərracda da qeyri-yaşayış sahəsi biznes obyektinə çevrilir. Bakının Nizami rayonunda yerləşən qeyri-yaşayış sahəsi gəlir gətirə bilər. Belə ki, mülkiyyətçi həmin obyekti həm kirayə verməklə, həm də ofisdaxili xidmət göstərməklə də yaxşı qazanc əldə edə bilər.

Bundan başqa, Bərdə şəhəri, Heydər Əliyev prospektində yerləşən qeyri-yaşayış sahəsi də xidmət sferasında sahibi üçün yararlıdır. Həmin obyektin ümumi faydalı sahəsi 40 kv.m-ə yaxındır.

Hərracda Daxili İşlər Nazirliyinin balansındakı avtomobillər də sahibini tapıb. BMW və Fiat markalı həmin maşınların istehsal tarixi 2007-ci ildir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi*

# Azərbaycanın istiqlal yolu



Tariximizdə mühüm yer tutan və onun parlaq səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 ili tamam olur. 1918-ci ildəki mürəkkəb tarixi şərait zamanı xalqımızın qabaqcıl ziyalılar təbəqəsi müstəqil dövlətimizin yaranmasında müstəsna rol oynamışdılar. Xaricdə yüksək təhsil alan, Avropa və dünya mədəniyyəti ilə yaxından tanış olan bu insanlar öz intellektual potensialı, millətinə olan sədaqəti ilə Azərbaycanda XX əsrin əvvəlində gedən proseslərdə fəal iştirak etmiş, ictimai-siyasi, fəlsəfi və maarifçilik yaradıcılıqları ilə xalqımızın milli oyanışına töhfələr vermişlər. Məhz bu insanlar yaranmış mürəkkəb vəziyyətdə birləşərək Azərbaycanın "İstiqlal Bəyannaməsi" ni elan etdilər və Azərbaycan Xalq Cümhuriyyətinin, respublikamızın müstəqilliyinin əsasını qoydular.

Azərbaycanın XX əsrdə istiqlaliyyəti uğrunda mübarizə tarixində 28 May ən unudulmaz gündür. 1918-ci ilin məhz həmin günü xalqımız azadlıq və müstəqillik arzularına qovuşmuş, Şərqdə ilk demokratik dövlət Azərbaycan Xalq Cümhuriyyəti elan edilmişdir. Xalq Cümhuriyyəti son dərəcə çətin və mürəkkəb tarixi-siyasi proseslərin cərəyan etdiyi bir dövrdə yaranmışdır.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ölkəmizin çoxəsrlik tarixi, sosial-iqtisadi və mədəni inkişafının, XX əsrin əvvəllərində başlanmış milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi.

Rusiyada oktyabr inqilabından sonra 1917-ci ilin noyabrında müstəqil Zaqafqaziya Komissarlığı, daha sonra Zaqafqaziya Seymi yaradıldı. 1918-ci il may ayının 26-da Gürcüstan müstəqilliyini elan edərək Seymdən çıxdı. May ayının 27-də isə Seymin müsəlman üzvlərinin fövqəladə iclasında Milli Şura yaradıldı və bir gün sonra Azərbaycan öz istiqlaliyyətini dünyaya bəyan etdi.

Müstəqillik aktı qəbul olunan gündən Azərbaycan Xalq Cümhuriyyəti gərgin fəaliyyətə başladı. Fətəli xan Xoyskinin rəhbərliyi ilə ilk hökumət yaradıldı. Dövlətçilik atributlarının tətbiq edilməsi qanunvericilik bazasının formalaşdırılması istiqamətində işlərin əsası qoyuldu. Lakin təəssüflər olsun ki, həmin dövrdə müstəqil dövlətimiz xarici və daxili düşmənlərin güclü müqaviməti ilə rastlaşırdı. Öz ülvi arzu və məqsədlərinin böyük hissəsini həyata keçirə bilməyən Azərbaycan Xalq Cümhuriyyəti 23 aydan sonra süquta uğradı.

Lakin belə az ömrünə baxmayaraq, ötən əsrin əvvəllərində Azərbaycanda müstəqil demokratik dövlətin yaranması müsəlman Şərqində respublika ideyasının formalaşmasına böyük təsir göstərdi və milli dövlətçilik ənənələrinin yaranmasına səbəb oldu. Azərbaycan Demokratik Cümhuriyyətinin qısa zaman kəsiyində həyata keçirdiyi tədbirlər xalqımızın tarixində dərin iz buraxmışdır. Qısa müddət ərzində Qərb dövlətləri ilə əlaqələr yaradıldı. Dünya sivilizasiyalarına qoşulmaq üçün parlament üsul-idarəsi təsis edilərək Azərbaycanda yaşayan bütün xalqların və siyasi partiyaların nümayəndələrinin təmsil olunması təmin edildi. 1998-ci il mayın 26-da Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisdə keçirilən təntənəli iclasda ulu öndər Heydər Əliyev demişdir: **"Azərbaycan Xalq Cümhuriyyəti az bir müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur. Məhz buna görə də Azərbaycanın bütün vətəndaşları — biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, onun fəaliyyətini və Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunəsi göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik".**

Azərbaycan Xalq Cümhuriyyəti tarixi missiyasını yerinə yetirdi. Ən əsası, cümhuriyyətin yaranması ilə vaxtilə itirilmiş dövlətçiliyimiz bərpa edildi. Müstəqil Azərbaycanın gələcəyinin əsası qoyuldu.

Xalqımız hürriyyət və azadlıq eşqini bir daha XX əsrin sonunda, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpa olunmasını dünyaya nümayiş etdirdi. Azərbaycan xalqının böyük oğlu, dünyanın görkəmli siyasi xadimlərindən olan ulu öndərimiz Heydər Əliyev müasir Azərbaycanın Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan etmiş, əvvəlcə Naxçıvan Muxtar Respublikasında, sonra isə ölkə səviyyəsində varisliyin və dövlət atributlarının qəbul olunmasına nail olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalamaqla ötən əsrin əvvəllərində Azərbaycan xalqına istiqlal, azadlıq sevincini yaşadan Azərbaycan Xalq Cümhuriyyətinin irsinə sadiqliyini, o dövrdə hakimiyyətdə olan və müstəqilliyin qorunması naminə fədakarlıq göstərən tarixi şəxslərə hörmət və ehtiramını bildirən möhtərəm cənab Prezidentimiz İlham Əliyev müsəlman Şərqində ilk parlament respublikanın fəaliyyətini də yüksək qiymətləndirir, azadlıq mücahidlərinin mübarizliyini vətənpərvərlik fəaliyyəti adlandırır.

**Ağacan ABİYEV,**
**Millət vəkili, professor.**

# ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASI

**Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, fəaliyyətini həmişə yüksək qiymətləndirirdi. Həmin dövr tariximizi çox gözəl bilən böyük dövlət xadimi deyirdi ki, müstəqilliyi qoruyub saxlamaq, onu əldə etməkdən qat-qat çətindir. Bunu Cümhuriyyətin tarixi taleyi də dönə-dönə sübut edir. Çünki ötən əsrin sonunda, xalqımız demək olar ki, eyni proseslərlə üzləşmişdi.**

Əgər ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli xahişləri ilə hakimiyyətə qayıtmasaydı, yəqin ki, dövlətçiliyimizi itirəcəkdik, ölkəmiz bir neçə dövlət arasında bölünəcəkdi. Nəticədə Azərbaycanın bir dövlət kimi mövcudluğu xəyal olaraq qalacaqdı.

Ümummilli lider müasir Azərbaycanı qurdu, inkişaf etdirdi, böyük dövlətlərin cərgəsinə çıxardı. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrini bərpa etdi, yaşatdı, inkişaf etdirdi. Bu gün müstəqil Azərbaycan dövləti regionda söz sahibidir, böyük və güclü dövlətlərin sırasında layiqli yer tutur.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə nəzər salanda, şahidi oluruq ki, müstəqilliyə gedən yol o qədər də asan olmamış, xalqımız dəhşətli faciələrlə üz-üzə qalmışdır. 1918-ci ilin martında erməni-bolşevik dəstələri tərəfindən insanlığa sığmayan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirilmişdir.

Belə bir qanlı hadisələrin yaşandığı dövrdə xalqımızın müstəqil olmaq eşqi sönməmiş, respublika sərhədlərindən kənarda Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edilmişdi: 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və bir gün sonra Müvəqqəti Milli Şura yaradıldı. Mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi elan olundu, Milli Şura çox mühüm tarixi hüquqi sənəd olan "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Altı bənddən ibarət olan Bəyannamədə deyilirdi:

*1. Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və qərb hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.*

*2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.*

*3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.*

*4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.*

*5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.*

*6. Məclisi-Müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır.*

"İstiqlal Bəyannaməsi" Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, siyasi quruluş formasını bəyan etməklə yanaşı, onun bütün fəaliyyətinə hüquqi təminat verən qanun rolunu oynadı.

Müvəqqəti hökumətin ilk başçısı Fətəli xan Xoyski mayın 3-də radioteleqrafla xarici dövlət başçılarının Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması məlumatını çatdırdı. Cümhuriyyətin xarici siyasətdə ilk uğuru iyunun 4-də Batumda Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsi imzalaması oldu. Daşnak ordusunun Azərbaycanda törətdiyi vəhşiliklərin qarşısını almaq üçün bundan sonra həmin müqavilənin 4-cü bəndinin tələblərinə uyğun olaraq Milli Şura və Xarici İşlər Nazirliyi Osmanlı dövlətlərindən hərbi kömək istədi. Bu köməyin qarşısını almaq üçün Şaumyan Gəncə üzərinə hücuma hazırlaşdı. Eyni zamanda, Leninin göstərişi ilə Gürcüstan hökumətinə məktubla müraciətində göstərdi ki, Osmanlı qoşunlarını öz ərazisindən Azərbaycana buraxmasa, Sovet Rusiyası Gürcüstanın muxtariyyətini tanıyacaq. Ancaq Gürcüstan Osmanlı qoşunlarının qarşısını ala bilmədi. Əvəzində Gürcüstan hökuməti Milli Şurasına Gürcüstan ərazisində fəaliyyətini qadağan etdi. İyunun 16-da Milli Şura Gəncəyə köçürüldü.

Milli Şura fəaliyyətini dayandıraraq səlahiyyətlərini F.X.Xoyskinin rəhbərlik etdiyi Müvəqqəti hökumətə verdi ki, Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanılsın.

1918-ci il sentyabrın 15-də Nuru paşanın başçılığı ilə Osmanlı qoşunları Bakını işğaldan azad etdi və iki gün sonra, sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli hökuməti Gəncədən Bakıya köçürüldü. Azərbaycanın bütün ərazilərində öz fəaliyyətini bərpa etmək üçün təsirli tədbirlər görməyə başladı. Yaranmasından 4 aya yaxın vaxt keçməsinə baxmayaraq, əslində Xalq Cümhuriyyəti fəaliyyətini bundan sonra qura bildi.

Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan dili dövlət dili elan edildi. İyunun 24-də üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks edilmiş qırmızı parçadan hazırlanmış dövlət bayrağı qəbul edildi. Noyabrın 9-da bayraq göy, qırmızı və yaşıl rənglərdən ibarət, üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əksi olan üçrəngli bayraqla əvəz edildi. Milli ordu yaradıldı, yeni demokratik dövlət təsisatları formalaşdırıldı, Azərbaycan vətəndaşlığı haqqında fərman qəbul olundu.

Milli Şuranın fəaliyyəti 1918-ci il noyabrın 16-da bərpa edildi və Şuranın bir neçə gün sonra keçirilmiş iclasında "Azərbaycan parlamentinin yaradılması haqqında" Qanun qəbul olundu. Bu qanunda hər iki cinsin seçki hüququ təsbit edildi. Bununla da Azərbaycan demokratik dəyərlərin reallaşmasında Şərqdə yenə birinci oldu.

Azərbaycan parlamenti 1918-ci il dekabr ayının 7-də fəaliyyətə başladı və 17 ay səmərəli fəaliyyəti dövründə 130 iclas keçirildi. Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi təqdim olundu ki, onlardan 230-a yaxını müzakirə edilib, qəbul edildi.

Azərbaycan hökumətinin ilk tədbirlərindən biri də sosial-iqtisadi sahədə islahatlar idi. İlk növbədə ərzaq məhsullarının xaricə daşınmasının qarşısı alındı. Ölkə ərazisində azad ticarətə şərait yaradıldı. Hökumətin 1918-ci il 5 oktyabr tarixli qərarı ilə Bakı Xalq Komissarları Sovetinin neft sənayesinin, ticarət donanmasının, neft sənayesi ilə bağlı digər sənaye sahələrinin milliləşdirilməsi ilə əlaqədar verdiyi bütün dekret və sərəncamları ləğv edildi. Həmin ilin dekabr ayının 10-da isə Neft Sənayeçiləri Qurultayı Şurası yanında neft və neft məhsullarının satışı üzrə büro yaradıldı.

Nəqliyyat infrastrukturunun inkişafı vacib məsələ kimi ortaya qoyuldu. Ələt-Culfa dəmir yolunun tikintisinə 250 milyon manat pul ayrıldı. 1919-cu ilin yayında neft və neft məhsullarının ixracı ilə əlaqədar xarici ölkə şirkətləri ilə müqavilələr imzalandı. Bakı neftinin Avropaya daşınması üçün Batum limanından istifadə hüququ aldı.

Azərbaycan hökumətinin iqtisadi sahədə apardığı islahatlardan biri aqrar məsələ idi. 1920-ci ilin martında hökumət Əmək Nazirliyinin hazırladığı layihəni müzakirəyə çıxartdı. Layihədə kənd əhalisi üçün 7 desyatindən 12 desyatinə qədər torpaq sahəsi verilməsi nəzərdə tutulurdu. Təəssüflər ki, bu islahatları həyata keçirmək mümkün olmadı.

Vergi sisteminin formalaşdırılması istiqamətində də ciddi tədbirlər görüldü. 1918-ci il sentyabrında "Bakı bonu" adlı pul vahidini dövriyyəyə buraxmaq qərara alındı. 1919-cu ildə (sentyabr) Dövlət bankı fəaliyyətə başladı.

Xalqın maarifləndirilməsinə xüsusi diqqət verilirdi. Məhz buna görə də ilk hökumətin tərkibində Xalq Maarif Nazirliyi yaradılmışdı. Daha sonra məktəblər milliləşdirildi. Təhsilin Azərbaycan dilində aparılması məcburi sayıldı. Müəllimlər hazırlamaq üçün Bakı, Gəncə, Şuşa, Qazax və başqa yerlərdə pedaqoji kurslar açıldı. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü. Qızlar gimnaziyalarının fəaliyyəti genişləndirildi, əlavə 7 kişi gimnaziyası açıldı. Türk dilində dərsliklər yazılmağa başlandı. 1919-cu il sentyabrın 29-da Bakı Universitetinin nizamnaməsi qəbul edildi, noyabrın 15-də dərslərə başlanıldı. Bu illərdə mədəniyyət, ədəbiyyat və incəsənət sahələrində də böyük inkişaf oldu.



Azərbaycan Xalq Cümhuriyyəti getdikcə dirçəlir, dövlətçiliyini möhkəmləndirirdi. Amma bolşevik istilası hər şeyə son qoydu. Bu istila o zaman oldu ki, artıq Azərbaycan dünya birliyinin üzvünə çevrilmişdi. 1920-ci ilin aprelində Bakıda bir çox dövlətlərin nümayəndəlikləri var idi.

Aprelin 22-də Leninin razılığı ilə daşnak qoşunları Xankəndi, Qazax və Gəncə istiqamətində hücuma keçdilər. Aprelin 27-də Volqa-Xəzər donanması Yalama yaxınlığına yetişdi, əməliyyat üçün əmr aldı. Bu zaman artıq XI ordu Azərbaycan sərhədlərini keçib, sürətlə Bakıya doğru irəliləyirdi. Yalama stansiyasında iki saatlıq döyüş Azərbaycan ordusunun məğlubiyyəti ilə nəticələndi.

XI ordu Bakıya daxil oldu və Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoydu. Azərbaycan yenidən Rusiya tərəfindən işğal edildi.

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa edərkən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan etdi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz qorunub möhkəmləndirildi, Ulu Öndər Xalq Cümhuriyyətinin dövlətçilik ideyalarını gerçəkləşdirərək demokratik hüquq dövlət yaratdı. Ümummilli Liderin möhkəm təməl üzərində qurduğu müstəqil Azərbaycan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, müasirləşir və müstəqillik tariximizin yeni-yeni nailiyyətlərlə dolu parlaq səhifələrini yazır. Bu gün hər birimizin müstəqil ölkəmizin əldə etdiyi tarixi uğurlarla qürur duymağa haqqımız vardır.

**Məhəmməd MƏMMƏDƏLİYEV,**
**Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı.**

# Dövlət müstəqilliyi Azərbaycanda tarixi dövlətçilik ənənəsinin təsdiqidir

**Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir:" Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləriyik. 1991-ci ildə Azərbaycanda müstəqillik elan edilərkən yazılıbdır ki, 1920-ci ildə itirilmiş müstəqillik bərpa olunur. Mən bu gün qürurla deyirəm ki, biz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisləriyik".**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illlik yubileyi haqqında" Sərəncamına və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmasına uyğun olaraq rayonumuzda keçirilən silsilə tədbirlər və digər geniş maarifləndirmə işləri də məhz bu notlar üstündə köklənir, o vaxtdan qoyulan bünövrənin daha da möhkəmkəndirilməsinə, müstəqil Azərbaycanımızın bugünkü sürətli sosial-iqtisadi inkişafına sanballı dəstək verilir. Bu günün zirvəsindən o şanlı tarixi yada salmaq, əlbəttə, hər bir azərbaycanlı üçün böyük fərəhdir.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximiz iki dövrə ayrılır: Birinci dövr - 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk nümayəndədən ibarət olan ilk Azərbaycan parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. İlk parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal Bəyannaməsini qəbul etmişdir. Bu Bəyannamə Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək - cəmi 17 ay davam etmişdir. İlk iclas — 1918-ci il dekabrın 7-də, son iclas — 1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə keçirilən 145 iclasın hamısında Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq, ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdir. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun - qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi. Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən AXC hökuməti və parlamenti vaxt itirmədən bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi.

Qeyd edək ki, müstəqil dövlətimizin ədliyyə tarixinin də ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Başqa sözlə, Ədliyyə Nazirliyinin təsis edilməsinə xüsusi əhəmiyyət verilərək 1918-ci il may ayının 28-də — Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır. Nazirlik öz işinə ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlamış, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, çətinliklə də olsa hüquq ədəbiyyatı kitabxanası yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Azərbaycan Demokratik Respublikasının süqutundan sonra digər milli dövlət strukturları kimi öz müstəqilliyini itirən, 70 il ərzində totalitar rejimin tələblərinə uyğun fəaliyyət göstərən ədliyyə orqanlarımız Ulu öndərin birinci dəfə respublikaya rəhbərlik etdiyi dövdə və müstəqillik illərində tamamilə yenidən qurulmuş, müstəqil, demokratik, dünyəvi dövlətimizin dünya standartlarına tam cavab verən bir strukturuna çevrilmişdir. Ədliyyə orqanlarının bir qolu olan qeydiyyat şöbələrinin bugünkü fəaliyyəti də yüz il bundan öncə qoyulan möhtəşəm bünövrənin bəxş etdiyi ən gözəl bəhrələrindən biridir.

**Aybəniz KƏLƏŞOVA,**
**Zaqatala Rayon Qeydiyyat Şöbəsinin müdiri.**

# Yeni inkişaf mərhələsində

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil respublikamızda Şərqdə ilk Parlament Respublikasının 100 illik bayramını hamımız böyük ruh yüksəkliyi ilə qeyd edirik. Ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci gəlişindən sonra Azərbaycan ədliyyəsinin həyatında da yeni mərhələ başladı. Bu mərhələ ədliyyə sistemimizin sürətli inkişafı, fəaliyyət istiqamətlərinin, funksiya və səlahiyyətlərinin genişlənməsi, işinin və strukturunun təkmilləşməsi, öz mahiyyətinə xas hüquqi dövlət və demokratik cəmiyyətlər üçün zəruri olan missiyalarını əldə etməsi ilə xarakterikdir.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli mövqeyi sayəsində qısa müddət ərzində ölkəmizdə zəruri şərait yaradılaraq milli hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, mühüm addımlar atıldı. Onun siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Respublikasını daha dinamik, sürətli inkişaf yoluna çıxarmışdır. Ölkəmizdə son illər baş verən sürətli sosial-iqtisadi dəyişikliklərlə paralel olaraq dövlət idarəçilik mexanizminin, məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi və təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin də inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını, onun fəaliyyət istiqamətlərinin genişləndirilməsini şərtləndirirdi.

Ölkəmizin ədliyyə sisteminin inkişafı və təkmilləşdirilməsi daim dövlət başçımız cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Son illərdə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı çoxsaylı normativ-hüquqi akt qəbul olunub.

Sevindirici haldır ki, vətəndaşlıq vəziyyəti aktlarının rayon və şəhərlərdə fəaliyyət göstərən qeydiyyat şöbələri də ədliyyə sistemində mühüm rol oynayır.

Qanun üzrə hüquq və vəzifələrin meydana gəlməsi, dəyişdirilməsi və onlara xitam verilməsinə səbəb olan hadisələr və vətəndaşların hərəkətləri vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vasitəsilə rəsmiləşdirilir.

Fiziki şəxsin hüquqi statusu və onun qeydiyyatı mülki-hüquqi münasibətlərin yaranmasının əsasıdır. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sistemi insan hüquqlarının qorunması, sosial-müdafiə proqramlarının həyata keçirilməsi, ailə sağlamlığının təmin edilməsi, əhalinin mənəvi sağlamlığının müdafiə edilməsi və cəmiyyətdə mövcud olan bir çox digər mühüm hüquqi və sosial proseslərdə vacib rol oynayır.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri öz səlahiyyətləri daxilində doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün qeydiyyatını aparır, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir və ləğv edir, itmiş qeydləri bərpa edir, akt kitablarını saxlayır və təkrar şəhadətnamələr verirlər. Azərbaycan Respublikasının ərazisində hazırda 86 rayon (şəhər) qeydiyyat şöbələri fəaliyyət göstərir. Şöbələr hər şeydən əvvəl vətəndaşların xidmətdən daha səmərəli və rahat istifadə etməsinə səy göstərirlər. Bu sahədə dövlət başçımızın göstərişləri bizə böyük köməklik göstərir. Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2002-ci il tarixli Fərmanına əsasən rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatını rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri aparırlar.

Müasir dünyamızda elmi-texniki inkişaf bizim fəaliyyətimizdə də özünü göstərməkdədir. Artıq "Vətəndaşlıq Vəziyyəti Aktları" Avtomatlaşdırılmış Qeydiyyat İnformasiya Sisteminin formalaşdırılması qabaqcıl mütəxəssislərin dəstəyi, hüquq və informasiya sahələrində daxili və beynəlxalq təcrübə nəzərə alınmaqla müasir proqramlaşdırma mühiti və yeni informasiya mühafizəsi metodları əsasında sistemin fəaliyyətini təmin edən tətbiqi proqram təminatının layihəsi hazırlanmış, müvəffəqiyyətlə sınaqdan keçirildikdən sonra 2008-ci il iyul ayının 1-dən etibarən tam gücü ilə istifadəyə verilmişdir.

Əhalinin dövlət reyestr fəaliyyətinin təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyinin 63 şəhər və rayon üzrə 78 qeydiyyat orqanı müvafiq kompüter avandanlığı ilə təchiz edilmiş, ölkə üzrə vahid elektron şəbəkədə birləşdirilmiş və bu qurumların "Vətəndaşlıq Vəziyyəti Aktları" Avtomatlaşdırılmış Qeydiyyat İnformasiya Sisteminə birbaşa rabitə xətləri vasitəsilə çıxışı təmin edilmişdir. Həmin orqanların və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparmaq səlahiyyəti olan icra hakimiyyəti nümayəndəliklərində çalışan əməkdaşlar üçün genişmiqyaslı təlimlər keçirilmişdir.

Bəli, zaman dəyişib. Xidmət sahəmizdə yaradılan şərait əhali ilə ünsiyyətin, onların qəbulunun, dinlənilməsinin, irəli sürülən arzu və təkliflərin yerinə yetirilməsinin keyfiyyətini, məzmununu yaxşılaşdırıb. Biz bu gün ən müasir texniki avadanlıqlarla təmin olunmuşuq. Qayğı və diqqət təbii ki, məsuliyyət hissini artırır. Yevlax Rayon Qeydiyyat Şöbəsinin əməkdaşları bundan sonra da əhali ilə işi müasir tələblər səviyyəsində qurmağa çalışacaqlar.

**Nəriman ƏZİZOV,**
**Yevlax Rayon Qeydiyyat Şöbəsinin rəisi.**

# Azərbaycan dəmir yolu yeni inkişaf mərhələsində

**Bu gün Azərbaycanın dəmir yolu sahəsi özünün ən sürətli və dinamik dövrünü yaşayır. Son illərdə təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş köklü islahatların aparılması, çevik və innovativ yeni idarəetmə sisteminin tətbiq edilməsi bu sahədə keyfiyyətcə yeni bir inkişaf dönəminin başlanğıcına səbəb olmuşdur. Azərbaycan Prezidentinin bu mühüm sahəyə xüsusi diqqət və qayğısının nəticəsidir ki, ölkənin nəqliyyat, o cümlədən dəmir yolu sektoru yenidən qurulur, dünya standartları səviyyəsinə uyğunlaşdırılır. Təsadüfi deyil ki, dəmir yollarını iqtisadiyyatın şah damarı adlandırırlar. Azərbaycanın yerləşdiyi coğrafi ərazi, güclü iqtisadiyyatı, iqtisadi əlaqələri hər bir sahədə olduğu kimi, dəmir yolu nəqliyyatının da sürətli inkişafı üçün olduqca münbit şərait yaratmışdır.**

Son illər ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi və təşəbbüskarlığı ilə həyata keçirən beynəlxalq əhəmiyyətli layihələr Azərbaycanı həm regionda, həm də dünyada bu sahədə logistik mərkəzə çevirib və bu qurumun tarixində yeni bir tərəqqi, müasirləşmə erası başlayıb. Son üç ildə bu sahədə aparılan məqsədyönlü işlər, mühüm tədbirlər daha da sürətlənmiş, dəmir yolunun siması tamamilə dəyişmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəmir yolunun müasir dünya tələbləri səviyyəsinə çatdırılması üçün qarşıya qoyduğu tapşırıq və tövsiyələri "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi ilə yüksək keyfiyyətlə icra olunur. Ötən üç il ərzində bu sahədə görülən işlərin həcmi olduqca böyükdür, müasir standartlara cavab verən son texnologiyaların tətbiq olunması ilə diqqəti çəkir. Bu dövr ərzində enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçilməsi, işarəvermə və rabitə sisteminin yeniləşdirilməsi üçün yeni avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, vaqon və lokomotiv parkının yeniləşməsi və digər mühüm işlər uğurla həyata keçirilmişdir. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmət səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşımaların mənzil başına vaxtında, təhlükəsiz çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi təmin olunmuşdur.

Ötən dövr ərzində "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi ilə dəmir yolunun ayrı-ayrı müəssisələrində əsaslı təmir-tikinti, yenidənqurma işləri yüksək keyfiyyətlə aparılmışdır. 2015-ci il sentyabrın 12-də Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edəcək ilk sərnişin qatarının yola salma mərasimi keçirilmişdir. Bundan başqa, həmin ildə 3100 müxtəlif təmayüllü yük vaqonları alınaraq ölkəmizə gətirilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı bölgələrdə vətəndaşların dövlət xidmətləri ilə təmin olunması üçün müasir texniki avadanlıqlarla tam təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. 2016-cı il dekabrın 28-də "ASAN qatar"la tanış olmaq üçün ölkə başçısı Biləcəri stansiyasında olmuşdur. "ADY" QSC-nin sədri görülən işlər barədə cənab Prezidentə məlumat vermişdir. Bundan başqa, QSC-nin inzibati binasında və Bakı Dəmir Yolu vağzalında da əsaslı təmir işləri aparılmışdır. Təmir işləri ən yüksək standartlara uyğun olaraq aparılmışdır. Yaradılmış şəraitlə tanış olmaq üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva burada olmuşlar və görülən işlərə yüksək qiymət vermişlər. Dəmir yolu vağzalında əhaliyə keyfiyyətli xidmət göstərmək üçün hər cür şərait yaradılmışdır. Bu gün vağzal binasının ikinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir.



Qeyd etdiyimiz kimi, bu gün Azərbaycanın təşəbbüsü və rəhbərliyi ilə beynəlxalq əhəmiyyət kəsb edən qlobal layihələr uğurla icra olunur, bu layihələrin reallaşmasında aktiv iştirak edir. Bu günün ən böyük layihələrindən biri Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsidir. Bu yolun uzunluğu 850 kilometrdir, onun da 504 kilometri Azərbaycanın ərazisindən keçir. Bu yol Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur, üç ölkəni və qitələri birləşdirir. Bu gün ölkəmizin ən önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir və böyük tarixi hadisədir. Bu dəhliz Şimali Avropanı Cənubi-Şərqi Asiya ilə birləşdirir. "Cənub-Qərb" Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində də işlər uğurla davam etdirilir. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini xeyli dərəcədə azaldır. Bu dəhliz üzrə yük daşımalarının həyata keçirilməsinin təşkilinə artıq başlanmışdır. Bütün bu layihələrin reallaşması ölkə başçısının dünyanın bir çox ölkələrinin dövlət başçıları ilə görüşü və əldə olunmuş razılaşmalar əsasında mümkün olmuşdur və bu barədə danışarkən cənab Prezident qeyd etmişdir ki, "Şərq-Qərb" dəhlizinin yaradılmasında biz fəal rol oynayırıq və biz özümüzü daha gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə böyük iqtisadi mənfəət gətirəcək və bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirən bu dəhliz tam gücüylə fəaliyyətə başladıqdan sonra Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımalarını, istər yerli, istərsə də tranzit daşımalarından əldə olunan gəlirləri xeyli artıracaqdır.

Ölkə başçısı və dəmir yolu rəhbərliyinin diqqət və qayğısı bütün dəmir yolu müəssisələrinin öz işlərini müasir tələblərə uyğun qurmasına münbit şərait yaratmışdır. Biləcəri stansiyasının kollektivi də son üç ildə yaradılmış inkişaf mühitindən istifadə edərək əzmlə çalışmış, yüksək göstəricilər əldə etmişdir. Ötən dövr ərzində "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun qayğı və dəstəyi sayəsində istər stansiyanın ərazisində, istərsə də inzibati binada əsaslı təmir-tikinti işləri aparılmış, işçilərin iş şəraiti yaxşılaşdırılmışdır. Stansiyada dəmiryolçuların rahat və təhlükəsiz fəaliyyət göstərmələri üçün yaradılmış iş şəraiti yüksək göstəricilərin əldə olunmasının əsas şərtidir. Biləcəri stansiyasının 2018-ci ilin ötən 4 ayında əldə etdikləri göstəricilər də uğurludur. Belə ki, bu dövrdə vaqon dövriyyəsi 161513 vaqon olmuşdur. 4 ay ərzində vaqonların yüklənməsi 113,80 vaqona qarşı 187-si olmuşdur ki, bu da 164,0 faiz təşkil etmişdir. Boşaldılan vaqonların sayı isə 902 vaqona qarşı 1169 vaqondur ki, bu da 130 faizdir. Qatarların qəbulu 2292 vaqon, işlənməyən tranzit qatarlar - 167 vaqondur. Qatarların göndərilməsi - 2027, işlənməyən tranzit qatarların isə 167 qatar olmuşdur. Bundan başqa, vaqonların qəbulu - 80457 vaqon, işlənməyən tranzit vaqonlar 6715-dir. İşlənən tranzit vaqonların göndərilməsi - 71070 vaqona qarşı 74341 ədəd təşkil etmişdir. Sutka ərzində vaqonların içi parkı - 298 plana qarşı 253 vaqondur. İşlənən vaqonların sayı - 85060 vaqon olmuşdur. İşlənən tranzit vaqonların orta dayanma vaxtı - 10,75 saata qarşı 9, 84 saat təşkil etmişdir. Vaqonların bir yük əməliyyatında olduğu zaman müddəti 8,0 saata qarşı 7,40 saatdır ki, bu da 108 faiz deməkdir.




Qeyd etdiyim kimi, stansiyada tikinti-quruculuq, yenidənqurma işləri də uğurla həyata keçirilmişdir. Stansiyanın inzibati binasının birinci mərtəbəsində ulu öndərimiz Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyən dövrlərdə dəmiryolçuların görüşünü əks etdirən guşə yaradılmışdır. Bundan başqa, inzibati binanın akt zalı müasir tələblərə uyğun əsaslı təmir olunmuşdur. Stansiyanın ərazisinə QSC-in sədri Cavid Qurbanovun tapşırığına əsasən yeni asfalt örtüyü salınmışdır və Şimal-Cənub vağzalının da asfalt örtüyü yenilənmişdir. Stansiyada 750 metr məsafədə Qərb istiqamətində baş yolun kənarındakı suötürücü (yağış sularının) sistem yeniləşdirilmişdir. Baş yollar üzrə təmas şəbəkə dayaqlarının və naqillərinin yeniləşdirilməsi işləri həyata keçirilmişdir. Stansiyanın ərazisində mövcud olan işçilərin xidməti, iş yerlərinin vəziyyəti, onların iş vaxtı normal fəaliyyətlərinin təmin olunması və iş şəraitlərinin yaxşılaşdırılması daim stansiya rəhbərliyinin nəzarətində saxlanılır.

Onu da qeyd edim ki, sədrin tapşırığı əsasında yeni avtomatlaşdırılmış idarə sistemində qatar sənədlərinin işlənməsi üzrə yeni proqram təminatı işlənib hazırlanmışdır. Vurğulayım ki, stansiyanın həyətindəki, bulaq-su kompleksi yüksək zövqlə təmir edilərək yenidən qurulmuş, fasiləsiz suyun verilməsi təmin edilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən keçən dövrdə bütün sahələrdə, o cümlədən dəmiryolu sektorunda əldə olunan möhtəşəm uğurlar ulu öndərimizin möhkəm təməlini qoyduğu siyasi-iqtisadi kursa əsaslanır. 2003-cü ildən ötən 15 il ərzində ölkəmiz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf etmiş, bütün sahələrdə böyük uğurlar qazanılmış, müstəqilliyimiz möhkəmlənmiş və əbədi olmuşdur. Cənab Prezident 2003-cü ildə Prezident seçkilərində xalqa müraciətində demişdir ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalacam, bu siyasəti davam etdirəcəm. Xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Qədirbilən xalqım 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar Prezident seçkilərində də görülən işlərə yüksək qiymət verdi, mənə bir daha etimad göstərdi. Buna görə doğma xalqıma dərin minnətdarlığımı bildirirəm. Xalqımızı əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəm.



"Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri Stansiyasının kollektivi də çoxminli dəmiryolçulara qoşularaq 11 aprel prezident seçkilərində ulu öndər Heydər Əliyev siyasi kursunu müasir dövrün tələbinə uyğun uğurla davam etdirən cənab İlham Əliyevə səs vermişdir. Çünki əldə etdiyimiz bütün uğurlarımızın təməlində onun uğurla apardığı siyasi-iqtisadi kurs dayanır.

**Elçin MƏMMƏDOV,**
**"ADY" QSC-nin Biləcəri stansiyasının rəisi.**

# Cocuq Mərcanlı tarlalarına suvarma suyu çıxarılır



Cəbrayıl rayonu müvəqqəti olaraq aran düzündə, Biləsuvar bölgəsinin ərazisində yerləşir. Respublikamızın hər yerində olduğu kimi, Cəbrayıl rayonunun fermerləri də əkin-biçinə xüsusi diqqət yetirir, müvəqqəti də olsa, onlara ayrılan torpaq sahəsindən səmərəli istifadə etməyə çalışırlar. Əkin sahələrinin optimal müddətdə suvarılması xeyli vacib şərtlərdəndir. Bəzən çətinliklər meydana gəlsə də, rayon suvarma sistemləri idarəsi fermerləri suvarma suyu sarıdan korluq çəkməyə qoymur. İdarənin rəisi **Tehran Məmişovla** söhbət zamanı öyrənirik ki, ərazidən keçən kanalda arabir suyun həcmi minimal səviyyəyə düşsə də, suvarma işi ara vermir.

- Bəzən kanalda su o dərəcədə azalır, nasosların girişinə, hətta su çatmır, rəis deyir, azacıq imkan tapan kimi suyu tarlalara çıxarırıq. Bildiyiniz kimi, meliorasiya işlərinin vaxtında və səmərəli həyata keçirilməsi, suvarma sistemlərinin düzgün qurulması kənd təsərrüfatının inkişafında müstəsna rol oynayır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin gündəlik və hərtərəfli qayğısı sayəsində biz bu mühüm vəzifənin öhdəsindən layiqincə gələ bilirik. 2018-ci ildə əkilmiş 4042 hektar sahənin 2170 hektarı taxıl, 771 hektarı yonca, 648 hektarı həyətyanı sahə, 91 hektarı pambıq, 186 hektarı təzə yonca,162 hektarı örüş-otlaq sahəsi, 14 hektarı tut bağı əkinlərindən ibarətdir. Aprel ayının son günlərinə qədər 91 hektar pambıq sahəsi arat olunmuş və səpin işləri başa çatmışdır.

Tehran müəllim bu ilin əkin mövsümündə Cocuq Mərcanlı kəndinin də əkin sahələrinin bol suvarma suyu ilə təmin olunmasından razılıqla danışır:

-Artıq Cocuq Mərcanlıda normal həyat bərpa olunmuş, kənd sakinləri öz dədə-baba peşələrini davam etdirməyə başlamışlar. Dövlət başçısı cənab İlham Əliyevin kənd sakinlərinə göstərdiyi qayğı və diqqət sayəsində indi bu yaşayış məntəqəsində heç bir çətinlik, o cümlədən suvarma suyu sarıdan problem yoxdur. Cocuq Mərcanlıda 280 hektar, Füzuli rayonunun Mirzənağılı və Qazaxlar kəndləri də daxil olmaqla 680 hektar əkin sahəsini su ilə təmin edən nasos stansiyası tikilib istifadəyə verilmiş, hazırda suvarma işi aparılır. Bu ərazilərdə taxılla yanaşı, 2 hektarda sorqo bitkisi, 17 hektarda şəkər çuğunduru əkilmiş və suvarılmışdır. Hazırda 48 hektarda qarğıdalı əkilməsi üçün şum və malalama işi aparılır.

Yeri gəlmişkən deyim ki, suvarma işinin normal aparılması sistemdəki qurğu və avadanlıqların texniki cəhətdən saz halda işləməsindən asılıdır. Bu ilin təqvim planına uyğun olaraq öz vəsaitimiz hesabına 17,5 kilometr kanal, kənar təşkilatın gücü ilə 13,6 kilometr suyığıcı lildən təmizlənmişdir. Ötən 4 ay ərzində nasosla 9350 kubmetr suvarma suyu qaldırılmış, bununla 5162 hektar sahə suvarılmışdır. Vegetasiya suvarma mövsümünün keyfiyyətli başa çatdırılması üçün 1, 2, 3 saylı nasos stansiyalarında aqreqatların işçi hissələri bütünlüklə yenisi ilə əvəz olunmuş, təmirə ehtiyacı olan hidrotexniki qurğular cari təmir olunmuşdur. Hazırda bütün aqreqatlar, maşın-mexanizm işlək vəziyyətdədir.

Tehran müəllim daha sonra deyir ki, Azərbaycan Respublikası Prezidentinin "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğuliyyətinin artırılması üzrə Dövlət Proqramı"na daxil edilmiş 1 saylı nasos stansiyasında əlavə 3-cü aqreqatın artırılması məqsədi ilə aparılan tikinti işləri tam başa çatdırılmışdır. Cəbrayıl Rayon Suvarma Sistemləri İdarəsinin melioratorları şübhə yoxdur ki, ötən illərdə olduğu kimi, 2018-ci ildə də öz vəzifəsinin öhdəsindən layiqincə gələcəklər.

**Hazırladı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Bərdədə pambıqçılığın şöhrəti özünə qayıdır

*"Bərdənin pambıqçılıqda çox böyük ənənələri vardır. 1970-1980-ci illərdə Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi."*

Bu sözləri dövlətimizin başçısı cənab İlham Əliyev mart ayının 26-da Bərdə rayonuna səfəri zamanı pambıqçılığın inkişafına dair respublika müşavirəsində səsləndirmişdir. Ölkə başçısının tapşırıq və tövsiyələri Bərdədə rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Bərdənin münbit torpağı və əlverişli iqlimi rayonda əkinçiliyin yüksək təşəkkül tapmasına zəmin yaratmışdır. 1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, pambıqçılığın inkişafında da sürətli inkişaf dövrü başladı. Bərdə pambıqçılıq rayonu olmaqla Sovetlər dövründə ən yüksək hədd olaraq 1981-ci ildə orta hesabla hər hektara 44,8 sentner olmaqla 28 min hektar sahədən 125350 ton pambıq istehsal etmişdir. Pambıqçılıq iqtisadiyyatda ən gəlirli sahə sayılmaqla yanaşı, insanların işlə təmin olunmasında da böyük əhəmiyyət kəsb edir. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra səriştəsiz adamların hakimiyyətə gəlişi ilə bir çox sahələrlə yanaşı, aqrar sahə də iflic vəziyyətinə düşdü.

Ancaq ölkə başçısı İlham Əliyev imzaladığı müvafiq sərəncamlara əsasən qeyri-neft sektorunun inkişafı son illərdə dinamik inkişaf etməyə başladı. Hazırda kənd təsərrüfatının bütün sahələrində dövlət tərəfindən bir çox güzəştlər edilir. Digər sahələrlə yanaşı, pambıqçılığın inkişaf etdirilməsi prioritet məsələ kimi qarşıya qoyulmuşdur. Bu sahəyə subsidiyaların verilməsi və pambığın satış qiymətinin artırılması əhalinin pambıqçılığa olan marağını daha da artırır. Fermerler keyfiyyətli toxum, üzvi və mineral gübrələr, eləcə də kənd təsərrüfatı texnikaları ilə təmin olunurlar. Mütəmadi olaraq əkin sahələrində zərərvericilərə qarşı dərmanlama işləri aparılır. Məhz bunun nəticəsidir ki, bərdəlilər ilbəil pambıqçılıqda yüksək məhsuldarlığa nail olurlar. Qeyd etmək lazımdır ki, bu sahədə bəzi çatışmazlıqlar da mövcuddur. Əldə olunan məlumata görə, bu cür halların aradan qaldırılması istiqamətində qəti addımlar atılmaqdadır. Bərdə Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Vüqar İsmayılovun dediyinə görə, ötən 2017-ci ildə hər hektara 26,3 sentner olmaqla 8518 hektardan 22402 ton pambıq istehsal olunmuşdur.



Bu il üçün isə 9600 hektar sahədə pambıq əkilmişdir. Kultivasiya dövründə əkilmiş sahələrə yüksək aqrotexniki qulluq göstərilir. Pambıq tarlalarının vaxtında suvarma suyu ilə təmin olunması üçün bütün zəruri tədbirlər görülmüşdür. "Azərpambıq" MMC-də bəzi texniki çatışmazlıqlar var və onların tezliklə aradan qaldırılması nəzərdə tutulur. Ötən il rayonda fermerlər yüksək göstəricilərə nail olmuşlar ki, onlardan Bayramlı Bayram 6 hektar torpaq sahəsindən hər hektara 51 sentner olmaqla 30,6 ton, Nərimanov Eldar 76 hektar torpaq sahəsindən hər hektara 44 sentner olmaqla 334,4 ton, Hüseynova Etibar 16 hektar torpaq sahəsindən hər hektara 41 sentner olmaqla 65,6 ton və nəhayət Məmmədzadə Yaqub 10 hektar torpaq sahəsindən hər hektara 56 sentner olmaqla 56 ton pambıq istehsal etmişlər. Mütəxəssislərin fikrincə, havaların əlverişli keçməsi cari il pambıqçılıqda yüksək məhsuldarlığın olacağından xəbər verir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

*Aqrar sahə*

# Tütünçülük Oğuz üçün səmərəli sahədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyri-neft sektorunun inkişafından danışarkən ölkədə kənd təsərrüfatının unudulan sahələrindən olan tütünçülüyə zəif münasibətin tamamilə aradan qaldırılmasını, onun əvvəlki inkişaf şöhrətinin qaytarılmasını mühüm və təxirəsalınmaz vəzifə kimi qarşıya qoymuşdur. Qeyd etmişdir ki, tütünçülüyün böyük potensialı var, biz bu sahəni də bərpa etməliyik. Oğuzun sovetlər birliyi vaxtındakı iqtisadiyyatının inkişafında tütünçülüyün nə qədər böyük rol oynadığını, rayonun, oğuzluların ailə büdcələrinin möhkəmləndirilməsində əldə edilən gəlirin əvəzsiz əhəmiyyətli rolu olduğunu yaxşı bilirlər. Ev tikmək, övladına toy etmək, özünə minik maşını almaq istəyən Oğuz kəndlisi bol tütün yetişdirməyə, yaxşı pul qazanmağa ümid bəsləmiş və bu istəyinə nail olmuşdur. Əmək fəaliyyətinə tütünçülüklə başlayıb, təsərrüfat rəhbərliyinə kimi yüksələn Sosialist Əməyi Qəhrəmanı fəxri ada layiq görülən Ziyafət Əliyeva, Respublika Ali Sovetinin deputatı olan Gülbahar Şıxıyeva, Zümrüd Məmmədova kimi tütünçülərin əməyi bu gün də iftixarla xatırlanır, gənclərə nümunə göstərilir. İldə dövlətə 4 min, 5 min ton tütün satan oğuzluların doxsanıncı illərin əvvəllərində respublikada baş verən məlum hadisələrdən sonra iqtisadiyyatın digər sahələri kimi tütünçülüyə də unutqanlığı artdı.

Artıq o illər arxada qalıb. Oğuz kəndlisi də, ziyalısı və mütəxəssisi də aqrar sahəyə keçmişə doğma münasibətlə qayıdış edir. O cümlədən tütünçülük ön plana çəkilir. Son bir neçə ildə, aqrar bölmənin digər sahələrinə olduğu kimi tütünçülüyə münasibətdə də böyük dəyişikliklər açıq aydın görünür. Böyük potensiallı sahəyə axın ildən-ilə çoxalır. 2015-ci ildə rayonda 13,7 hektarda tütün əkilib, yekunda 102,3 ton yaşıl yarpaq yığılmış və 3 min tona yaxın quru tütün əldə olunmuşdur. Uzun illərin unutqanlığından sonra bu cür başlanğıc, əlbəttə, pis deyil. Bu sahəyə axının çoxalması, ayrı-ayrı iş adamlarının, fermerlərin, tütünçülüklə məşğul olamağa başlaması inkişafa təkan verdi. Şəki "Azəri" korperasiyanın bu sahədəki fəaliyyəti də diqqəti cəlb edir. Korperasiyanın Oğuz rayonunda bu sahədəki fəaliyyətini daha genişliyi ilə öyrənmək üçün onun buradakı nümayəndəsi Xaləddin Alcanovla həmsöhbət olduq. Öncə qeyd edək ki, o, təsərrüfatda yetişib, müxtəlif sahələrdə çalışıb. Tütünçülüyün sirlərini də, onun gəlirli sahə olduğunu da yaxşı bilir. Korporasiya tərəfindən rayonda hələ ötən ildən atılan ilk addımlar və bu addımların səmərəliliyinə Oğuz Rayon İcra Hakimiyyətinin, aqrar sahə ilə məşğul olan qurumların yaxından köməkliyi yaxşı səmərə verdi, oğuzluların tütünçülüyün əvvəlki şöhrətinin qaytarılmasına nail olacaqlarına real əminlik yaratdı. Bütün bunlar rayonda bu il götürdüyü daha uğurlu startda sözügedən korporasiyanın da fəaliyyəti diqqətçəkəndir. Həmsöhbətim Xaləddin Alcanovun dediklərindən: - bəli, məqsəd keçən il yol verilən bəzi nöqsanları təkrarlamamaq, işə daha səriştəli yanaşmaq, torpaqlardan, digər mövcud ehtiyat mənbələrindən məqsədyönlü istifadə etmək nəticədə ötən ilkindən çox məhsul istehsalına nail olmaqdır. Qeyd edim ki, bu il həm fərdi qaydada əkinlə məşğul olanlarla yanaşı, on beş fermer də bu sahəyə cəlb edilmişdir. Onların bəziləri keçən ildə bizimlə birlikdə fəaliyyət göstərib və yaxşı nəticələr qazanıblar. Məsələn, fermerlərdən Arzu İsmayılova 4 hektardan 132 ton yaşıl tütün, Fatma Həsrətova 25 hektardan 6 ton, Rasim Əliyev 8 hektardan 14 tondan çox quru tütün istehsalına nail olublar. Ötən ildən fərqli olaraq bu il əkin materialının hamısının özümüz yetişdirməyi qarşıya məqsəd qoymuşuq. Bunun üçün yalnız korporasiyamız tərəfindən 2500 kvadratmetr ərazidə şitillik salınıb, bol və keyfiyyətli əkin materialı yetişdirilib. Rayonda əhalinin məşğulluq səviyyəsinin artırılmasında da tütünçülük böyük təkan verir. Hər il 400-ə yaxın oğuzlu bu sahədə işlə təmin olunur.



Artıq Oğuzda tütün əkininə başlanmışdır. Rayonun Yaqublu, Kərimli, Bucaq kəndlərinin sözügedən korporasiya ilə birgə fəaliyyət göstərən adamları sahələrə tütün şitili əkirlər. Hər gün əkinə çıxanların sırası genişlənir. "Azəri" Korporasiyanın Oğuzdakı nümayəndəsi ilə yanaşı, icra hakimiyyətinin, rayon kənd təsərrüfatı idarəsinin nümayəndələri də yerlərdə olur, tütün əkininə öz köməkliklərini əsirgəmirlər. İşin başlanğıcı bol məhsul üçün yaxşı bünövrə qoyulduğunu bir daha təsdiqləyir, - deyə söhbətini davam etdirən Xaləddin Alcanov daha sonra bir vacib və Oğuz üçün tam yeni olan bir sahəyə də toxundu.

—Bu il məhsulun daha çox olacağına bir də ona görə əminəm ki, rayonun Bucaq kəndində tərəfimizdən tikilən tütün qurutmaxanasının bir hissəsi artıq istifadəyə veriləcəkdir. Hələlik 10-nu gətirmişik. Yaxın zamanlarda tam quraşdırılacaqdır. Cəmi kameralar isə 30 olacaq. Burada qəbul olunan yaşıl tütünün kameraların hamısı istifadəyə veriləndən sonra bir dəfədə 200-240 tonunu qurutmaq mümkün olacaq. Mövsüm ərzində isə otuz kamera ilə 5 min ton tütün qurutmaq olacaq. Tam istifadəyə veriləndən sonra səksən nəfər burada işçi çalışacaq.

Havaların əlverişli keçən hər günündən istifadə olunur, əkin kampaniyasının uğurla başa çatdırılmasına yüksək qayğı ilə yanaşılır. "Azəri" Korporasiyasının yerdəki nümayəndəliyi ilə yanaşı, bu gün Oğuzda bu vacib və gəlirli təsərrüfat sahəsinə cəlb olunan fiziki və hüquqi şəxslərin hamısı, bütövlükdə rayon məqsədyönlü fəaliyyətdədir.

**Rasim AMANOV,**
**"Respublika".**

# Ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər barədə Şəkidə ictimai təqdimat keçirilmişdir




Azərbaycan Respublikası Prezidentinin dövlət orqanlarının fəaliyyətində şəffaflığın, aşkarlığın təmin edilməsi, korrupsiya və digər neqativ hallara imkan verən məmur-vətəndaş münasibətlərində birbaşa təmasın minimuma endirilməsi, həmçinin süründürməçilik hallarını aradan qaldırmaqla operativliyin təmin olunaraq vətəndaş məmnunluğuna nail olunması məqsədilə elektron xidmətlərin tətbiqi və ardıcıl olaraq onların dairəsinin genişləndirilməsi barədə tapşırıqlarının icrası Azərbaycan Respulikası Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.

Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı ilə bağlı tapşırıqlarına əsasən Ədliyyə Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin portala inteqrasiyası davam etdirilərək onların sayı 27-ə çatdırılmış, əlavə olaraq 4 yeni elektron xidmətin təşkili üzrə işlər davam etdirilir. Bu xidmətlərdən istifadə edən vətəndaşların sayı ilbəil artmış artıq bir il üzrə istifadəçilərin sayı milyonlarla ölçülür. Ədliyyə Nazirliyi tərəfindən elektron xidmətlərin təşkili və onların tətbiqi dairəsinin genişləndirilməsi ilə yanaşı bu xidmətlər barədə insanların ətraflı məlumatlandırılması da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə yerlərdə vaxtaşırı nazirlik tərəfindən göstərilən elektron xidmətlərin ictimai təqdimatları keçirilir.

Bu cür tədbirlərin keçirilməsi "Açıq hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın ədliyyə orqanlarında icrası üzrə İş Plan"ında (2018-ci il üzrə) və Azərbaycan Respulikası Ədliyyə Nazirliyi Kollegiyasının 26 yanvar 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan ədliyyəsinin 100 illik yubileylərinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nda nəzərdə tutulmuşdur.

Məhz bu tədbirlər çərçivəsində 18 may 2018-ci il tarixdə Şəki regional ədliyyə idarəsində ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər barədə geniş ictimai təqdimat keçirilmişdir.

Tədbirdə idarənin ərazi yurisdiksiyasına aid rayonların ictimaiyyət nümayəndələri, o cümlədən vətəndaş cəmiyyəti qurumlarının, KİV-lərin nümayəndələri, ayrı-ayrı dövlət orqanlarının məsul əməkdaşları iştirak etmişlər. Tədbirdə Ədliyyə Nazirliyinin məsul əməkdaşları tərəfindən ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər barədə geniş məlumat verilmiş, həmin xidmətlərdən istifadə qaydaları izah edilmiş, göstərilən elektron xidmətlər əyani şəkildə nümayiş olunmuşdur.

Tədbirdə iştirak edən ictimaiyyət nümayəndələri bu cür təqdimatların keçirilməsini faydalı hesab edərək təqdir etdilər, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə minnətdarlıqlarını bildirdilər.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Azercell Azərbaycanın ən yaxşı startapını seçəcək

## *1 milyon ABŞ dolları qazanmaq üçün əla fürsət*

**Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı və PAŞA Bankın dəstəyi ilə ölkəmizdə 6-cı dəfə Seedstars World müsabiqəsinin yerli seçimləri baş tutacaq.**

8 iyun 2018-ci il tarixdə ADA Universitetində Azərbaycanın 10 ən yaxşı startapı ölkəni Seedstars sammitində təmsil etmək və 1 milyon ABŞ dolları qazanmaq uğrunda mübarizə aparacaq. Qaydalara əsasən 2 ildən daha az müddətdə fəaliyyət göstərən, bu müddətdə real məhsulu, həmçinin regional və qlobal böyümə potensialı olan startaplar müsabiqədə iştirak edə bilərlər. Meyarlara uyğun olan startaplar yarışa qatılmaq üçün https://www.seedstarsworld.com/event/seedstars-baku-2018 linki vasitəsilə may ayının sonuna qədər qeydiyyatdan keçməlidirlər.

Qeyd edək ki, tədbirin keçirilməsində Seedstars-ın məqsədi inkişaf edən ölkələrdə mövcud olan, xüsusilə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun həllər istiqamətində fəaliyyət göstərən sahibkarları diqqət mərkəzinə gətirməkdir. Bu məqsədlə Seedstars ən innovativ və yeni yaranan startapları müəyyən etmək üçün 65-dən çox ölkəyə səfər edir və onlara İsveçrədə keçirilən beynəlxalq Seedstars Sammitində 1 milyon ABŞ dollarına qədər investisiya vəsaiti əldə etmək, dünyanın müxtəlif ölkələrindən olan investorlar və mentorlarla əlaqələr qurmaq imkanı yaradır. Əvvəlki iştirakçılar toplam 92 milyon ABŞ dollarından artıq investisiya cəlb etmiş və bununla 2,100-dən çox iş yerinin yaranmasını təmin etmişdir.

Məlumat üçün bildirək ki, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri - startapları dəstəkləyərək onların müstəqil şirkətlər kimi inkişaf etməsinə kömək edən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi İsveçrənin "Seedstars" şirkəti ilə yaxından tərəfdaşlıq edir və "Seedstars Baku" müsabiqəsinin yerli təşkilatçısıdır.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlər uğurla davam etdirilir.

2018-ci ilin 15 may tarixində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində 3 xarici vətəndaşın saxta elektron vizalarla Azərbaycan Respublikası ərazisinə gəlmək cəhdinin qarşısı alınmışdır.

Belə ki, "Şarja-Bakı" reysinin rəsmiləşdirilməsi zamanı 3 Nepal vətəndaşı tərəfindən sərhəd nəzarətinə təqdim etdikləri elektron vizalarının başqa dövlətlərin vətəndaşlarına aid olmaları müəyyən olunmuşdur.

Sərhəd nəzarəti zamanı təqdim olunmuş sənədlərə laboratoriya şəraitində dərinləşdirilmiş baxış keçirilərkən Nepal vətəndaşı 1952-ci il təvəllüdlü Ali Bakhsi Ghodrollahın təqdim etdiyi elektron vizanın İİR vətəndaşı Şahi Ram Bahadurun adına, Nepal vətəndaşı 1993-cü il təvəllüdlü Khand Satrughmanın təqdim etdiyi elektron vizanın Çexiya vətəndaşı Mozek Ondrejin adına, Nepal vətəndaşı 1991-ci il təvəllüdlü Thapa Sunanın təqdim etdiyi elektron vizanın Böyük Britaniya vətəndaşı Shah Qasım Alinin adına verilməsi aşkar olunmuşdur.

Araşdırma zamanı həmin şəxslərin Azərbaycan Respublikası ərazisindən tranzit istifadə etməklə Avropaya qanunsuz miqrasiya etmək niyyətində olmalarını göstərən hallar aşkar olunmuşdur. Belə ki, Nepal vətəndaşlarının Azərbaycan Respublikasının elektron vizasını öz ölkələrində turizm agentliyindən 100 ABŞ dolları ödəməklə əldə etmələri, Bakıya turizm məqsədilə səfər etmələrini bildirdikləri halda geriyə aviabiletlərinin olmaması, şəhərdə qalmaq üçün yer sifariş etməmələri müəyyən edilmişdir.

Saxlanılmış əcnəbilər barəsində müvafiq əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

# Şəhidin xatirəsinə həsr olunmuş tədbir

Bu günlərdə Beynəlxalq İdeal Sülhün Təbliği Fondunun prezidenti və "Dövlətçiliyə dəstək mərkəzi"nin sədri, Cüdo üzrə idman ustası Arzu Hüseynovanın təşkilatçılığı ilə fevral döyüşlərində şəhid olmuş Zakir Cəfərovun doğum günü ilə bağlı tədbir keçirildi. Dövlət himninin səsləndirilməsindən sonra tədbiri giriş sözü ilə açan A.Hüseynova Zakir Cəfərovun keçdiyi həyat yolundan danışdı. Qeyd etdi ki, 2017-ci ilin fevralında şəhid olmuş Zakir Cəfərovun və başqa 4 nəfər şəhidin də nəşi neytral ərazidən götürülmüşdür. Z.Cəfərovun ölümündən sonra o, "Şücaətə görə" medalı ilə təltif edilmişdir.



Fondun təsisçisi Əlikram Müzəffər çıxış edərək şəhidlərimizə Allahdan rəhmət, ailələrinə isə səbir diləmişdir. O demişdir: "İnanırıq ki, tezliklə bu müharibəyə son qoyulacaq. Arzu edirəm ki, biz həmişə qələbə günlərinin ildönümlərində görüşək. Böyük Atatürkün bir sözü var: "Qələbə - Qələbə mənimdir deyənlərindir". İnşallah Qələbə bizim olacaq".

Tədbirdə şəhidin xatirəsinə ithaf olunmuş film nümayiş etdirildi. Filmin nümayişindən sonra millət vəkili Sədaqət Vəliyeva çıxış edərək ərazimizin düşmən tapdağından azad olunması uğrunda gedən döyüşlərin qəhrəmanlıq salnaməmiz olduğunu söylədi. Şəhidlərin təkcə bir ananın deyil, bütün Azərbaycan analarının övladı olduğunu deyən millət vəkili, bu günün həm də qəhrəmanlıq günü kimi yaddaşımıza yazıldığını qeyd etdi.

Tədbirdə Zakir Cəfərovun oxuduğu 201 saylı məktəbin və daha sonra təhsil aldığı Memarlıq Kollecinin müəllim və tələbələri onun haqqında xatirələrini söylədilər.

Sonda çıxış edən şəhidin anası torpaq uğrunda canından keçmiş bütün Azərbaycan övladlarının ruhlarının yalnız Qarabağ torpaqlarının işğaldan azad olunduqdan sonra rahatlıq tapacağını bildirdi.

**Arzu ƏLİYEVA,**
**"Respublika".**


**Bakı Nəqliyyat Agentliyi qiymətləndirmə xidmətlərinin satınalınması ilə əlaqədar**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Bakı Nəqliyyat Agentliyi qiymətləndirmə xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2185) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2018-ci il tarixində saat 11:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.

**Bakı Nəqliyyat Agentliyi inventarların satınalınması ilə əlaqədar**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Bakı Nəqliyyat Agentliyi inventarların kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2185) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2018-ci il tarixində saat 12:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.

**Bakı Nəqliyyat Agentliyi avtonəqliyyat vasitələri üçün yeni təkərlərin satınalınması ilə əlaqədar**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Bakı Nəqliyyat Agentliyi avtonəqliyyat vasitələri üçün yeni təkərlərin kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2185) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2018-ci il tarixində saat 10:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.

**Bakı Nəqliyyat Agentliyi yazılı və şifahi tərcümə xidmətlərinin satınalınması ilə əlaqədar**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Bakı Nəqliyyat Agentliyi yazılı və şifahi tərcümə xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 4198) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2018-ci il tarixində saat 15:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.


# GDU-da "Biz gənc beynəlmiləlçilərik" adlı tədbir

Fransanın Azərbaycandakı səfirliyinin dəstəyi və Gəncə Dövlət Universitetinin xarici dillər fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Biz gənc beynəlmiləlçilərik" adlı Frankofoniya bayramı keçirilib. Gəncə Dövlət Universitetinin tələbələri dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasını fransız dilində təqdim ediblər.

Gəncə Dövlət Dram Teatrında keçirilən bayram tədbirində universitetin rektoru, professor Yusif Yusibov, ali təhsil müəssisəsinin professor-müəllim heyəti, tələbə kollektivi, valideynlər və ictimaiyyət nümayəndələri, eləcə də Fransa səfirliyinin təmsilçiləri iştirak edirdilər. İlk öncə, Azərbaycan və Fransanın dövlət himni səsləndirildi. Sonra, Frankofoniya bayramının tarixi və əhəmiyyəti haqqında iştirakçılara məlumat verildi. Bildirildi ki, "Frankofoniya" sözü ilk dəfə 1880-ci illərdə fransız coğrafiyaşünası Onezim Reklü tərəfindən fransız dilində danışan bütün insanları və ölkələri təyin etmək üçün işlədilib. Məhz həmin vaxtdan başlayaraq "frankofoniya" sözü bütün dünyada fransız dilini ana dili və yaxud ikinci dil olaraq istifadə edən insanların birliyini nümayiş etdirən bayram kimi qeyd edilib. Lakin bu məfhum ötən əsrin 60-cı illərinə doğru tədricən unudulmağa başlayıb. Buna baxmayaraq, sonradan bir çox dövlət və mədəniyyət xadimləri bu bayramı keçirmək üçün təşəbbüs göstəriblər. Məhz 1962-ci ildə ədəbiyyat xadimi, Seneqal Prezidenti Leopold Sedar Senqhor bu bayramın keçirilməsinin zəruriliyini bu cür qeyd edib. 1970-ci ildə Texniki və Mədəni Əməkdaşlıq üzrə Agentlik (hazırkı Beynəlxalq Frankofoniya Təşkilatı) yaradılıb. Hazırda Beynəlxalq Frankofoniya təşkilatına 80 dövlət və hökumət daxildir. Onlardan 57-i üzv, 23-ü isə müşahidəçi statusu daşıyır. Bu gün Beynəlxalq Frankofoniya Təşkilatına üzv olan dövlətləri siyasi, iqtisadi və mədəni əlaqələr birləşdirir.

Bayram tədbirində çıxış edən və xoş gün münasibətilə bütün kollektivi təbrik edən Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov Azərbaycan ilə Fransa arasındakı tarixi əlaqələrdən və hazırda hər iki dövlət arasındakı çoxtərəfli münasibətlərin mövcud vəziyyətindən danışdı. Son orta əsrlərdən başlayaraq Azərbaycandakı əsilzadə ailələrinin övladlarına bir sıra elmlərlə yanaşı, fransız dili də tədris edilməyə başlayıb. Beləliklə, fransız dilində sərbəst danışmaq həmin əsilzadə ailələrin övladları üçün yüksək mədəniyyətin göstəricisi kimi qəbul edilib. Həmçinin, Azərbaycan bədii nəsrinin ilk nümunəsi olan "Rəşid bəy və Saadət xanım" hekayəsini İsmayıl bəy Qutqaşınlı fransız dilində yazıb.



Hər iki xalq arasındakı ikitərəfli münasibətlərin bugünkü vəziyyətindən də danışan Yusif Yusibov bildirdi ki, Fransa Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlətdir (31 dekabr 1991-ci il). Həmçinin, 1992-ci ildə Fransa öz səfirliyini ölkəmizdə açan ilk dövlətlərdəndir. Fransa, məqsədi Ermənistan ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini axtarmaq olan ATƏT-in Minsk qrupuna həmsədrlik edir. Bu dövlət, eyni zamanda, Avropa qonşuluğu siyasəti çərçivəsində, Avropa Birliyi və Azərbaycan arasında əməkdaşlıqda da fəal rol oynayır. 2011-ci il oktyabrın 7-də Prezident Sarkozi Bakıya gəlib və Prezident İlham Əliyevlə birlikdə Bakı Fransız Liseyinin ilk təməl daşını qoyub.

Hazırda Azərbaycan Fransa arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yüksək səviyyədə olduğunu deyən rektor Yusif Yusibov bildirdi ki, hər iki dövlət arasındakı elm-təhsil əlaqələrinin, xüsusən Gəncə Dövlət Universiteti ilə Fransa universitetləri arasında qurulan münasibətlərin ildən-ilə inkişaf etməkdədir. Bu gün universitetin xarici dillər fakültəsinin Fransız dili ixtisasında 100-dən artıq tələbə təhsil alır və hazırda Gəncə Dövlət Universiteti ilə Fransanın 3 ali təshil müəssisəsi - Strasburq - 2 Universiteti, Şampan Alven Universiteti və Yuxarı Elzas Universitetləri daha sıx əməkdaşlıq edir. Məhz bu cür qarşılıqlı əlaqələrin nəticəsində GDU ilə həmin universitetlər arasında akademik heyət üzvləri və tələbələrarası mübadilə həyata keçirilir. Bir çox beynəlxalq proqramlar icra olunur, konfranslarda iştirak və səfərlər təmin edilir. Bu cür əməkdaşlığın daha bir nümunəsi isə hər il Gəncə Dövlət Universitetində təşkil olunan Frankofoniya bayramlardır. Məhz bu bayram şənliyi çərçivəsində çoxlu sayda fransız milli musiqiləri və rəqslər ifa olunur, səhnəciklər nümayiş etdirilir. Bu cür münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə yaxın günlərdə universitetdə Aleksandr Düma Mərkəzi fəaliyyətə başlayacaq.

Sonra Gəncə Dövlət Universiteti tələbələrinin ifasında fransız milli musiqiləri, rəqslər ifa olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

## FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### ❑ DONALD TRAMP: ÇİN VƏ AVROPA BİRLİYİ ƏRKÖYÜNLƏŞİBLƏR



"Çin və Avropa Birliyi (AB) ölkələri ərköyünləşiblər". "APA"nın məlumatına görə, bu bəyanatı ABŞ prezidenti Donald Tramp verib. Çinlə idxal-ixrac vergiləri barədə danışıqların davam etdiyini bildirən Tramp bu danışıqların uğurla sona çatacağına şübhə etdiyini vurğulayıb. "Onlar ABŞ-dan ürəkləri istəyən hər bir şeyi artıqlaması ilə əldə ediblər. Ona görə də ərköyünləşiblər. Belə halların davam etməsinə icazə verməyəcəyik", - deyə ABŞ prezidenti bəyan edib.

Eyni zamanda, AB, Yaponiya, Cənubi Koreya və digər ölkələrin uzun illərdir ABŞ-dan külli miqdarda maliyyə vəsaiti toplamasını qeyd edən Donald Tramp ölkəsi üçün ticarətin həmişə birtərəfli yol olduğunu diqqətə çatdırıb. O deyib: "ABŞ Çin tərəfindən illərdir dələduzluğa məruz qalır. Buna görə Çini günahlandırmıram, günahlar bizim əvvəlki liderlərimizdədir".

Bununla yanaşı, Ağ Ev rəhbəri Çinə tətbiq edəcəyi vergilərin artırılacağını vurğulayıb.

Qeyd edək ki, Çin ABŞ-a iqtisadi müharibədə 200 milyard dollar güzəştə getməklə bağlı təklif verib. Çinin bu təklifi ABŞ-la ticarətdə defisiti azaltmaq üçün nəzərdə tutulub. Donald Tramp bu təklifi qəbul edərsə, dövriyyədən "Boeing" korporasiyası ən çox gəlir əldə etmiş şirkət olacaq.

Daha öncə isə Çin böhrandan və iqtisadi anlaşılmazlıqdan qaçmaq üçün ABŞ-dan idxal olunan malların həcmini artırmaq niyyətində idi. Xatırladaq ki, ABŞ və Çin arasında ticarət dövriyyəsinin həcmi 347 milyard dollar təşkil edir.

### ❑ SERGEY SKRİPAL XƏSTƏXANADAN EVƏ BURAXILIB



Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki Sergey Skripal xəstəxanadan evə buraxılıb. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, bunu Böyük Britaniyanın Solsberi şəhərindəki xəstəxananın direktoru bildirib.

Xəstəxanadan Skripalın hazırda harada olduğu və gələcəkdə müalicəsini davam etdirib-etdirməyəcəyinə aydınlıq gətirilməyib. Bu, xəstəyə dair məlumatların konfidensiallığının qorunmasının vacibliyi ilə izah edilib. Regionun Səhiyyə İdarəsi də Skripalın xəstəxanadan çıxdığını təsdiqləyib.

Eyni zamanda, xəbər verilir ki, Rusiya kəşfiyyatının keçmiş zabiti Sergey Skripal Britaniyada istintaqa ifadə verib. Skripal bu cinayət işini araşdıran müstənqiqlər tərəfindən dindirilib. Hazırda onun xarici səfərləri ilə bağlı bütün detallar araşdırılır.

Qeyd edək ki, Britaniya xüsusi xidmət orqanlarına casusluqda günahlandırılan və hazırda İngiltərədə yaşayan Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki Sergey Skripal və onun qızı Yuliya bu il martın 4-də Solsberi şəhərində naməlum maddədən zəhərlənərək xəstəxanaya yerləşdirilib.

Britaniya hökuməti S.Skripal və qızının kimyəvi hücum nəticəsində zəhərləndiyini bildirib. Hadisəyə görə Rusiyanı ittiham edən rəsmi London 23 rusiyalı diplomatı ölkədən çıxarıb. Britaniyaya dəstək olaraq Avropa Birliyinin 16 ölkəsi, ABŞ, Kanada, Norveç, Avstraliya, Moldova, Albaniya, Makedoniya və Ukrayna da eyni addımı atıb. Ümumilikdə 150 rusiyalı diplomat bu ölkələrdən qovulub. Rusiya da buna cavab olaraq analoji addımlar atıb.

### ❑ DÜNYA BAZARINDA NEFTİN QİYMƏTİ 80 DOLLARA ÇATIB



Birləşmiş Ştatların kommersiya neft ehtiyatlarının proqnozlaşdırılan həcmdən çox azalması "qara qızılı" bahalaşdırıb. "APA"nın verdiyi xəbərə görə, son 52 həftə ərzində ilk dəfə olaraq "Brent" markalı neftin qiyməti 80,17 dollara qalxıb.

Məlumata görə, qiymətlər ABŞ Energetika Nazirliyinin həftəlik rəsmi hesabatından sonra bahalaşıb. Hesabata əsasən, ötən həftə ərzində ölkənin kommersiya neft ehtiyatlarının həcmi 1,4 milyon barrel azalaraq 432,4 milyon barrelə düşüb. Bundan başqa, Birləşmiş Ştatlarda benzin ehtiyatlarının da həcmi 3,79 milyon barrel azalıb. Bu rəqəmlər bazarda neftə tələbatın artacağını göstərir.

Qərbi Texas nefti də illik rekordu yeniləyib. Son bir il ərzində bu markadan olan neftin bir barreli ilk dəfə olaraq 71,92 dollardan satılıb. İki marka arasında qiymət fərqi isə ilk dəfə olaraq 8 dollara çatıb. Qiymət fərqi neftin bahalaşmasında geosiyasi amillərin əsas rol oynadığını göstərir ki, bu amillər arasında ilk yeri İrana neft embarqosunun tətbiqi ehtimalıdır.

Hazırda diqqətlər ABŞ-da hasilata cəlb olunan buruqların sayına dair açıqlanacaq hesabata yönəlib. Bu hesabat birjalarda həftənin son ticarət sessiyasında qiymətlərin formalaşmasına təsir edəcək əsas amillərdən biri hesab olunur. ■

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu ofisi üçün avtomobillərin təmirinin satınalınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından (Əlaqələndirici şəxs: E.İ.Məmmədxanova, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

**İştirak haqqı: 30 (otuz) manat**

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*
*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi:*
*AZ29CTRE00000000000005728225*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T. : CTRE AZ 22*
*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 1%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- iddiaçının analoji işlərdə təcrübəsi, potensial, texniki və kadr imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçirələcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank qarantiyası istisna olmaqla) 20 iyun 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 4 iyul 2018-ci il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 5 iyul 2018-ci il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi Bakı şəhəri, Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi, 31 ünvanında yerləşən Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasının yenidən qurulması (rekonstruksiyası) işlərinin satınalınması üzrə (təkrar)

# AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, satınalma müqaviləsinin vaxtında yerinə yetirilməsi, podratçının ixtisas göstəricilərinin aidiyyəti işlər üzrə uyğunluğu, analoji işlər üzrə təcrübəsi, texniki, maliyyə və kadr imkanları.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra aşağıdakı hesaba 800 (səkkiz yüz) manat iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Zaur Qəribov, telefon: (+99412) 505-65-37 daxili 141) ala bilərlər.

*Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi*
*Hesab: AZ93AİİB38030019440380537102*
*VÖEN: 1701934661*
*"Kapital Bank" ASC-nin Mərkəz filialı*
*Filialın kodu: 200026*
*VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944*
*SWİFT kod: AİİBAZ2X*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Podratçılar iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

*1. Tenderdə iştirak etmək üçün ərizə;*
*2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*3. Tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifinin ümumi qiymətinin 2 (iki) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*5. İddiaçı haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçının analoji işlər üzrə yerinə yetirdiyi və ya icrasını davam etdirdiyi müqavilələrin təsdiq olunmuş surəti;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
*- İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Digər sənədlər: tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.*

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2018-ci il 12 iyun tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2018-ci il 27 iyun saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2018-ci il 28 iyun tarixində saat 11:00-da Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyində açılacaqdır.

**Tender Komissiyası.**




**Akademiya tərəfindən "dəftərxana və təsərrüfat mallarının satınalınması məqsədilə" 02 aprel 2018-ci ii tarixdə elan olunmuş tender elanı üzrə tender təkliflərinin və bank təminatının təqdim edilmə müddəti - iddiaçı müəssisələrin gec müraciət etmələri ilə əlaqədar şərtlər toplusunun qiymətləndirilməsi və bank təminatının alınmasında yaranacaq çətinliklə əlaqədar müraciətlərini nəzərə alaraq 21 may 2018-ci il tarixdən 31 may 2018-ci il saat 17:00 tarixədək uzadılmışdır. Tender zərflərinin açılışı 01 iyun 2018-ci il tarixdə saat 16:00-da həyata keçiriləcək.**

# BİLDİRİŞ

**"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş "Bakı Metropoliteni" QSC üzrə və digər tədbirlərdə istifadə olunan güllərin "Kotirovka sorğusu" üsulu ilə satınalınmasına dair müsabiqədə fiziki şəxs Həmidov Cəfər Məhərrəm oğlu qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 18.05.2018-ci il tarixdə ƏDV daxil 7 222,19 manat (yeddi min iki yüz iyirmi iki manat, 19 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.**

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi İnventarların alınması məqsədilə

# KOTİROVKA SORĞUSU ELAN EDİR

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər müvafiq sənədlərini təqdim etməlidirlər. Təqdim edilmiş zərflərin açılışı 29 may 2018-ci il tarixində saat 11:00-da inzibati binada keçiriləcək.

**Əlaqələndirici şəxs:** *Böyükağa İbrahimov*
**Tel.:** *(012) 538-58-84*
**Ünvan:** *Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospekti, 111.*

**Tender Komissiyası.**

## Bakı Nəqliyyat Agentliyi "Uzaq nöqtələrdə GSM üzərindən M2M data şəbəkəsinin təşkili xidməti"nin satınalınması ilə əlaqədar

# KOTİROVKA SORĞUSU ELAN EDİR

Bakı Nəqliyyat Agentliyi "Uzaq nöqtələrdə GSM üzərindən M2M data şəbəkəsinin təşkili xidməti"nin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2185) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2018-ci il tarixində saat 14:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.

## "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi

# BİLDİRİŞ

"Azərbaycan Respublikasının Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi İnventarların kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 538-58-84 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2018-03-09 10.00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospekti, 111.*

## Şəki Şəhər İcra Hakimiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçiriləcəkdir.**

**Lot-1.** Digər maşın və avadanlıq

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tədbirdə iştirak etmək istəyənlər lot üzrə 100 (yüz) AZN aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*Kapital Bank Şəki filialı*
*Kod: 200703*
*VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944*
*Şəki YXO*
*H/h: AZ03AIIB32051019447000201170*
*VÖEN: 3000104011*
*S.W.I.F.T. BIK: AIIBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərfləri açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işlərin yerinə yetirilməsi üçün analoji işlərdə təcrübəsi;*
*—iddaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklif və bank zəmanəti istisna olmaqla 29 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 9 iyul 2018-ci il saat 17:00-dək təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər 10 iyul 2018-ci il saat 12:00-da qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Ünvan:** *Şəki şəhəri, 20 Yanvar küçəsi, 8.*
**Əlaqələndirici şəxs:** *Abbasov Qalib.*
**Tel.:** *(024) 24-4-37-22.*

**Tender Komissiyası.**

TƏKRAR

## Şəmkir Rayon İcra Hakimiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** Sair xərclər.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilə il ərzində yerinə yetirilməlidir.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə 100 manat məbləğində iştirak haqqını aşağıdakı göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Şəmkir Rayon İcra Hakimiyyətinin Tender Komissiyasından ala bilərlər.

İştirakçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Şəmkir rayonu YXO*
*VÖEN: 8500155391*
*Bank: "Kapital Bank"ın Şəmkir filialı*
*Kodu: 200479*
*VÖEN: 99000003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*H/h: AZ97AIIB32051019444700201147*
*S.W.I.F.T. BIK AIIBAZ 2X*

**Əlaqələndirici şəxs: Vüqar Muradov.**
**Əlaqə telefonu: (022) 305-30-18.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflər açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;*
*—iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*—iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi barədə məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 13 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifini və bank zəmanətini isə möhürlənmiş, imzalanmış ikiqat zərfdə 27 iyun 2018-ci il tarixində saat 17:00-dək təqdim etməlidirlər.

İddiaçıların təklifləri 28 iyun 2018-ci il tarixində saat 11:00-da Şəmkir Rayon İcra Hakimiyyətinin İnzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## "Balakhanı Operating Company LTD" şirkətinin Azərbaycan Respublikasındakı filialı

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot-1:** "Balakhanı Operating Company LTD" şirkətinin Azərbaycan Respublikasındakı filialı "Nasos kompressor borularının" satınalınması:

**1.** 48 mm x 4.0 - 20.0 ton
**2.** 60 mm x 5.0 - 450.0 ton
**3.** 73 mm x 5.5 - 1560.0 ton
**4.** 89 mm x 7.0 - 200.0 ton
**5.** 114 mm x 7.0 - 50.0 ton

Tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində malların keyfiyyətinə, ən aşağı qiymətə, əsas şərtlər toplusunda göstərilən meyarlar əsasında ən sərfəli tender təklifinə üstünlük veriləcəkdir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər bir lot üçün 500 (beş yüz) AZN iştirak haqqını "Balakhanı Operating Company LTD" şirkətinin Azərbaycan Respublikasındakı filialının hesabına köçürüldükdən sonra əsas şərtlər toplusunu ala bilərlər.

*Bankın adı və rekvizitləri:*
*"Balakhanı Operating Company LTD" şirkətinin Azərbaycan Respublikasındakı filialı*
*Yerləşdiyi ünvan: ünvan Az-1034 Bakı şəh Sabunçu qəsəbəsi, Seyid Hüseyn küç-1 (faktiki)*
*Tel.: Tel: 012 550 81 22*
*Faks: 012 450 22 84*
*Email: İNFO@BALAKHANİ-OC.COM Tel: 012 550 81 22*
*VOEN:1302740191*
*Bankın adı: Kapitalbank ASC-nin Sabunçu filialı*
*VOEN 9900003611*
*H/h: AZ48AİİB40040019440008347120*
*M/h :AZ37NABZ01350100000000001944 Kod: 200208*
*SWİFT BİK AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri gaytarılmır.**

İştirakçılar əsas şərtlər toplusunu Az-1034 Bakı şəh Sabunçu qəsəbəsi, Seyid Hüseyn küç. (faktiki) (əlaqələndirici şəxs) Rəşad Quliyev. Telefon: 450-23-81, elektron poçt ünvanı: rashad.quliyev1@gmail.com ünvanından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvanı, poçt indeksi, telefon nömrələri, rəhbərinin adı və soyadı göstərilməklə, möhürlənmiş və imzalanmış olmalıdır);*
*-iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);*
*-tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla) tender təklifi ilə birlikdə təqdim olunmalıdır. Bank təminatını tender zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və tenderdən kənarlaşdırılır.*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında (müvafiq orqanlardan arayış);*
*-iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyət müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (2018-ci ildə notariusdan təsdiq edilmiş surəti);*
*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı barədə məlumat;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender iştirakçılarından tələb olunan sənədləri 1 iyun 2018-ci il saat 17:00-a qədər bir nüsxədə, tender təklifi isə 11 iyun 2018-ci il saat 11:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə iki nüsxədə (əsli və surəti) Az-1034 Bakı şəh., Sabunçu qəsəbəsi, Seyid Hüseyn küç.-1 (faktiki) ünvanına təqdim edilməlidir. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş tender zərfləri açılmadan geri qaytarılacaqdır.

Tender zərflərin açılışı proseduru 12 iyun 2018-ci il LOT-1 - saat 11:00-da;

Az-1034 Bakı şəh., Sabunçu qəsəbəsi, Seyid Hüseyn küç-1( faktiki) ünvanında "Balakhanı Operating Company LTD" şirkətinin Azərbaycan Respublikasındakı filialının konfrans zalında keçiriləcəkdir.

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Pr. Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Sümük Vərəm Xəstəlikləri Sanatoriyası 2018-ci ildə içməli və texniki suyun daşınması, müəssisənin su anbarına tökülməsi üzrə işlərin satınalınması məqsədi ilə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) Lot üzrə keçirilir.**

**Lot-1.** İçməli suyun daşınması üzrə işlərin satınalınması - 50 manat.

**Lot-2.** Texniki suyun daşınması üzrə işlərin satınalınması - 50 manat.

*Pr. Gindes ad. RUYSVX Sanatoriyası*
*VÖEN: 1200032731*
*Hesab N 2127403*
*Dövlət Xəzinədarlıq Agentliyi*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*
*SWİFT CTREAZ 22*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlara malik olmalıdır. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zaqulba qəsəbəsi, Rasim İmanov küçəsi-4 ünvanında yerləşən Pr. Gindes adına RUYSVX Sanatoriyasının inzibati binasından ala bilərlər.

**İştirak haqqı hec bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs: Xırda xanım Rəhimova (telefon: 453-08-34).**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədləri;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifinin dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir. (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14.06.2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 iyun 2018-ci il saat 16:00-a qədər Zaqulba qəsəbəsi, R.İmanov küçəsi-4 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 iyun 2018-ci il tarixdə saat 16:00-da Zaqulba qəsəbəsi, R.İmanov küçəsi-4 ünvanında Pr. Gindes ad. RUYSVX Sanatoriyasının inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Pr. Gindes adına RUYSVX Sanatoriyasının Tender Komissiyası.**

Sabirabad rayonu Minbaşı kənd sakini Əsədov Ağakişi Qılıncxan oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair JN-191 nömrəli (kod 90916018) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

"Goranboy-Gips" ASC-yə məxsus JN-7799 saylı (kod: 50900138) Torpaqdan Müvəqqəti istifadə Hüququna dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

"Fəsləfi Araşdırmalar İctimai Birliyi"nin təsisçilərinin 17 may 2018-ci il tarixli iclasının yekdil qərarına əsasən fəaliyyətinin dayandırıldığını və buraxıldığını elan edir.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Veravul kənd sakini Musayeva Anaxanım Mədi qızına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 0089; KOD 80200048) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Şıxəkəran kənd sakini Səfərov Sayıq Mirzəmməd oğluna verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 623; KOD 80222028) itdiyi üçün etibarsız sayılır.

Nuriyeva Təzəgül Əhməd qızına məxsus Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov küçəsi, ev 30 a, mənzil 8 ünvanına verilmiş MH seriyalı 108776 nömrəli qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru professor Teymur Əhmədov və redaksiyanın kollektivi iş yoldaşları Elxan Hüseynova, qardaşı**
**İSMAYIL HÜSEYNOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Kooperasiya Universitetinin rektorluğu və professor-müəllim heyəti professor Afət Əhmədova, həyat yoldaşı**
**SVETLANA xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
18.05.2018